RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 95 (8411) ŞƏNBƏ, 16 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Pandemiya dövründə iqtisadi tərəqqi

## Avropa Yenidənqurma və İnkişaf Bankı Prezident İlham Əliyevin strateji hədəfləri düzgün müəyyənləşdirdiyini təqdir edir

**Bu gün bəşəriyyəti çətin sınaq qarşısında qoyan qlobal pandemiya insan sağlığı ilə yanaşı, dövlətlərin iqtisadiyyatına da ciddi mənfi təsirini göstərməkdədir. Belə ki, işsiz əhalinin maddi durumunun yaxşılaşdırılması, aztəminatlı ailələrə yardımların edilməsi, sahibkarlıq subyektlərinə hərtərəfli dəstək göstərilməsi dövlətin iqtisadi imkanlarını xeyli məhdudlaşdırır. Məhz buna görə də bəzi ekspertlər 2020-ci ilin iqtisadiyyat üçün "itirilmiş il" kimi tarixə düşəcəyini qeyd edirlər.**

### Hər bir böhranın sonu…

Lakin hər bir böhranın sonu, adətən, yeni iqtisadi sıçrayışlarla müşahidə olunur. Yeni böhran yeni iqtisadi ideyaları həyata keçirmək üçün münbit şərait deməkdir. İstənilən böyük dövlətlərdə inkişafın davamlılığını təmin edən başlıca amillərdən biri məhz strateji hədəflərin düzgün müəyyənləşdirilməsidir.

Dünyada geoiqtisadi risklərin yüksəlməsi və problemlərin dərinləşməsi, neftin qiymətindəki qeyri-sabitlik fonunda Azərbaycan iqtisadiyyatının dayanıqlıq nümayiş etdirməsi bir daha göstərir ki, iqtisadi prioritetlərin əvvəlcədən müəyyən olunması və hədəflərin məqsədyönlü şəkildə reallaşdırılması çox önəmlidir.

Hətta qlobal maliyyə böhranı zamanı da Prezident İlham Əliyevin çevik və praqmatik iqtisadi siyasəti, vaxtında görülmüş qabaqlayıcı tədbirləri dünya iqtisadiyyatındakı mənfi proseslərin ölkəmizə təsirlərinin minimuma endirilməsinə imkan yaratmışdı.

### Ümumi daxili məhsulun 3 faiz artması gözlənilir

İndi isə qlobal pandemiya böyük dövlətlərin iqtisadiyyatına ciddi ziyan vurmaqda davam edir. Ancaq buna baxmayaraq, iqtisadi ekspertlər bəzi ölkələrin iqtisadi durumu ilə bağlı nikbindirlər. Belə ki, bu günlərdə Avropa Yenidənqurma və İnkişaf Bankının regional iqtisadi perspektivlərə dair hesabatında Azərbaycan iqtisadiyyatının gələn il 3 faiz artacağı qeyd edilib. Ekspertlər vergi güzəştləri və məşğulluğa dəstək tədbirlərinin iqtisadi artım üçün şərait yaradacağını bildirirlər.

Qeyd edilir ki, 2021-ci ildə Azərbaycanda ÜDM-in artımı 3 faiz təşkil edəcək. İqtisadçı-ekspertlər bildirirlər ki, Azərbaycan hökuməti tərəfindən koronavirusun iqtisadiyyatın bütün sahələrinə təsirini azaltmaq üçün çevik addımlar atılıb. İlk olaraq məşğulluq probleminin yaranmaması üçün görülən tədbirlər vəziyyətin stabilləşdirilməsində önəmli rol oynayıb. Bildirilir ki, gələn il ölkədə iqtisadi artımın proqnozlaşdırılmasını şərtləndirən məsələlərdən biri də biznes mühitinin yumşalması üçün atılan təşviqedici addımlardır.

Hesabatda o da qeyd olunub ki, Dövlət Neft Fondunun aktivləri xarici şokların təsirini azaltmaqda önəmli rol oynayacaq. Mart ayında xarici valyutaya artan tələbat fonunda Mərkəzi bank yerli banklara təxminən 2 milyard dollar satıb. Bu isə aprel ayında valyutaya təzyiqi azaldıb. Bank sektoruna inamın artmasında hökumətin fiziki şəxslərin əmanətlərinin tam sığortalanması müddətini 2020-ci ilin dekabr ayının əvvəlinə qədər uzatması da önəmli rol oynayıb.

Bank artıq 2020-ci ilin III rübündə region ölkələrində iqtisadi artımın bərpa olunacağını gözləyir. Bununla yanaşı, hesabatda pandemiyanın potensial uzunmüddətli ciddi iqtisadi, siyasi və sosial izlərinin qalmasının mümkünlüyü qeyd olunub.

### Davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə

Prezident İlham Əliyevin hərtərəfli əsaslandırılmış strateji inkişaf kursu əlverişli geosiyasi mövqeyə, zəngin təbii-iqtisadi potensiala malik olan Azərbaycanı siyasi və makroiqtisadi baxımdan sabit məkan, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə kimi tanıdıb.

*Ardı 4-cü səh.*



# Azərbaycan müasir texnologiyaların tətbiqinə xüsusi önəm verir

## CISCO şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib

**Mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentini salamlayan CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım **Kelli KRAMER** dedi:

- Sabahınız xeyir, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:**

- Sizi görməkdən çox şadam, sabahınız xeyir. Amma sizin üçün axşamınız xeyir olsun. Sizdə indi axşamdır.

**Kelli KRAMER:**

- Bəli. Sizi görməkdən olduqca məmnunam. Sizi sonuncu dəfə Davosda görmüşdüm. Amma üstündən, görünür, son hadisələrdən sonra çox vaxt keçir.

**Prezident İlham ƏLİYEV:**

- Bəli, sizi yenidən görməyimə çox şadam və çox yaxşıdır ki, bizim bir-birimizlə danışmaq və Davosda keçirdiyimiz görüşdən sonra görülmüş işləri nəzərdən keçirmək, eləcə də növbəti addımları planlaşdırmaq üçün bu fürsətimiz var.

**Kelli KRAMER:**

- Elədir ki, var. Hesab edirəm ki, bir çox maraqlı hadisələr baş verməkdədir. Mən, sadəcə, bizimlə görüşdüyünüzə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim.

*Ardı 2-ci səh.*

# ABŞ beynəlxalq təhlükəsizliyin gücləndirilməsində Azərbaycanın rolunu yüksək dəyərləndirir

## Donald Tramp İlham Əliyevə məktubunda Birləşmiş Ştatların Azərbaycan xalqının yanında olduğunu növbəti dəfə bəyan etdi

**Bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-ABŞ əlaqələri bu gün müxtəlif sahələri əhatə edir. Siyasi, iqtisadi və digər sahələrdə iki dövlət arasında əməkdaşlıq formatları mövcuddur.**

Demokratları və respublikaçıları təmsil etməsindən asılı olmayaraq ABŞ-a rəhbərlik etmiş bütün prezidentlər və onların administrasiyaları Azərbaycanla münasibətlərə daim ehtiramla yanaşıblar.

Bu günlərdə ABŞ Prezidenti Donald Trampın 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubu bir daha iki dövlət arasındakı yüksək siyasi münasibətlərin təsdiqi oldu. Prezident İlham Əliyevə və Azərbaycan xalqına Amerika xalqı adından səmimi salamlarını və təbriklərini çatdıran Donald Trampın məktubunda qeyd olunur ki, Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. Məktubda əməkdaşlığın beynəlxalq hüququn dövlətlərarası münasibətləri tənzimləyən təməl norma və prinsiplərinə vurğu ilə başlaması təsadüfi deyil.

*Ardı 4-cü səh.*

# Azərbaycan qlobal problemlərin həlli platformasına çevrilib

## Prezident İlham Əliyevin təşəbbüsü ilə dünya birliklərinin mütləq əksəriyyəti COVID-19-la mübarizədə səylərini birləşdirib

**Qlobal pandemiya elan edilən koronavirus (COVID-19) bəşəriyyəti təhdid etməkdə davam edir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ölkələrdə COVID-19-a yoluxmanın sayını azaltmaq üçün bir sıra fundamental addımların həyata keçirilməsini vacib hesab edir.**

Həmin təkliflər sırasında dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, ictimai toplantıların dayandırılması, test, izolyasiya və karantinin həyata keçirilməsi üçün dövlət qurumlarının yeni şəraitə uyğunlaşdırılması, səhiyyə qurumlarının və ön sırada olan işçilərin müvafiq resurslarla təmin edilməsi durur. Həmçinin əhaliyə bu xəstəliyin ciddiliyinin izah olunması, əl gigiyenası, öskürək etiketi və sosial məsafənin vacibliyinin izah edilməsi, bütün şübhəlilərin təcrid edilməsi, pandemiyadan ən çox zərər çəkmiş insanlara iqtisadi yardımın göstərilməsi, dövlətlər arasında həmrəyliyin gücləndirilməsi, yoluxma halları və nəzarət tədbirləri barədə ÜST ilə operativ şəkildə informasiyanın paylaşılması kimi məsələlər də bura aiddir.

*Ardı 6-cı səh.*

# Mütərəqqi təcrübə

## Dövlət siyasətinin əsas məqsədi ölkə əhalisinin koronavirus pandemiyasından xilas edilməsi, insanların həyatının, sağlamlığının təminidir




Artıq istər dünyanın aparıcı dövlətlərinin rəsmiləri, istərsə də beynəlxalq təşkilatların təmsilçiləri bu qənaətdədirlər ki, Azərbaycanın koronavirusa qarşı mübarizə sahəsində əldə etdikləri ən mütərəqqi və insansevər təcrübədir.

Çünki Azərbaycan dövləti üçün başlıca məsələ vətəndaşlarının sağlamlığıdır. O da xüsusi olaraq qeyd edilir ki, Azərbaycanda formalaşdırılmış müasir səhiyyə sistemi koronavirusla mübarizə sahəsində bütün lazımi tədbirləri görməyə imkan verir.

Bütün bunlar ölkəmizdə koronavirusla mübarizədə əldə edilən müsbət nəticələrlə bağlıdır. Lakin son günlər ölkədə virusa yoluxanların sayının artması narahatlıq yaratmaya bilməz. Ona görə də insanların məsuliyyətsiz davranışının davam edəcəyi təqdirdə karantin rejiminin əvvəlki vəziyyətə gətiriləcəyi və sərtləşdiriləcəyi barədə də fikirlərin səsləndirilməsi təsadüfi deyil. Buna görə deyə bilərik ki, karantin qaydalarını pozanlara qarşı ciddi tədbirlər görüləcəyi istisna olunmur. Çünki koronavirusun yayılmaması üçün ölkə əhalisinin şəxsi məsuliyyəti mühüm şərtdir.

Maska taxmaq, məsafə saxlamaq, tez-tez əlləri yumaq, dezinfeksiya vasitələrindən istifadə etmək bir qaydaya çevrilməlidir. Pandemiya dövründə də dünyanı birləşdirən Azərbaycan nümayiş etdirdi ki, o, sözü ilə əməli vəhdət təşkil edən bir ölkədir.

"Dövlət siyasətinin əsas məqsədi vətəndaşların həyatını, sağlamlığını qorumaqdır", - deyən Prezident İlham Əliyevdən gələn "cəza tədbirlərini sərtləşdirin" kimi ciddi tapşırıq bəzi məsuliyyətsiz insanlara sadəcə mesaj deyil.

*Ardı 6-cı səh.*

# Koronavirus Paşinyanı çıxılmaz vəziyyətə salıb

## Ermənistanda sosial-iqtisadi xaos daha da dərinləşir

**Ermənistanda koronavirus pandemiyası səbəbindən getdikcə ağırlaşan vəziyyət hakimiyyət üçün də əlavə problemlərə yol açmaqdadır. Hətta fikirlər səslənir ki, bu gedişlə Nikol Paşinyan yaxın tezlikdə iqtidardan devrilə bilər.**

"İrates" qəzeti də ölkədə son hadisələr fonunda qeyd edir ki, hakimiyyət artıq Nikol Paşinyanın əlindən sürüşüb gedir. Bildirilir ki, baş nazir komandasında birliyi belə təmin edə bilmir. Hakimiyyətin müxtəlif qanadları arasında gərginlik yüksək həddə çatıb. Paşinyanın arxasında kölgə hökuməti fəaliyyət göstərir. Hüquq mühafizə orqanları cinayət işlərinin qarşısını arzuedilən səviyyədə ala bilmirlər.

"İrates"in yazdığına görə, Paşinyan keçmiş hakimiyyət nümayəndələrinin son qəpiyini müsadirə etməklə vəziyyətdən çıxmağa çalışır. Ermənistan baş nazirinin yaxın günlərdə keçmiş vəzifəlilərə qarşı yeni cinayət işini başladacağı gözlənilir: "Burada iki, yaxud üç variant ola bilər. Ya Ermənistan rəhbərliyi sadəcə siyasi müqavimətin bir hissəsi olan keçmiş hakim sistemin kapitalını müsadirə edib ələ keçirir, yaxud müxtəlif kompromat məlumatlara sahib insanlar olmadıqda, bu kapital ilə razılaşır. Bunlardan hansı Ermənistanın maraqları baxımından perspektivli, daha real və ya daha effektivdir? Birinci versiya ictimai cəhətdən cəlbedici görünür, amma burada özünü aldatma ehtimalı olduqca yüksəkdir.

*Ardı 7-ci səh.*

▪ *Özünü, doğmalarını və dostlarını qorumaq:*
▪ *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Azərbaycan müasir texnologiyaların tətbiqinə xüsusi önəm verir

## CISCO şirkətinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirilib

*Əvvəli 1-ci səh.*

İcazənizlə, başqa bir məsələni də deyərdim. Əslində, yaxşı və xoş təəssürat bağışlayan haldır ki, COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və Qoşulmama Hərəkatının görüşünün təşkil edilməsində liderlik səylərinizi nümayiş etdirdiniz. Çox böyük təəssürat bağışladı. Bir daha bu işlərə rəhbərlik etdiyinizə görə Sizə minnətdarıq.

Onu da söyləməliyəm ki, CISCO-nun teleiştirak texnologiyasından istifadəni görmək də çox yaxşı hal oldu. Bir sözlə, əgər bununla Sizə kömək edə bildiksə, bu, çox xoşdur. Sizi görmək fürsətini də dəyərləndiririk. Buna görə minnətdarıq.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun.

Sonra CISCO şirkətinin vitse-prezidenti **Qay DİTRİX** çıxış edərək dedi:

- Sizi görməyimə çox məmnunam. Bu gün bizə vaxt ayırdığınıza görə olduqca minnətdaram. Mən üç sahəni əhatə edəcəyəm. Müzakirə etmək istədiyimiz üç sahə belədir: "Smart ölkə", təhsil və kibertəhlükəsizlik. Onların hamısı Sizin əsas prioritetlərinizlə bağlıdır. Siz onları təxminən iki il əvvəl bizim qarşımızda təsvir etdiniz. Biz ildə iki dəfə Bakıda, yaxud Davosda keçirdiyimiz görüşlərdə Sizə yenilikləri çatdırırdıq.

"Ağıllı şəhər" layihəmiz yəqin ki, xatirinizə gəlir. Biz, əslində, "Ağıllı avtovağzal" ilə başladıq və şəhərdə həmin sahəyə aid bütün müxtəlif cəhətləri əlavə etdik. Özü də bu addımı hərtərəfli sınaq formatında atdıq. Nəticə inanılmaz dərəcədə uğurlu oldu. Çoxsaylı müsbət rəylər daxil oldu. Çox yaxşı məlumatlar toplanıldı.

Qay Ditrix ölkəmizdə icra olunan birgə layihələrdən danışdı, bu layihələrin çox gözəl nəticələr verdiyini bildirdi. CISCO şirkətinin vitse-prezidenti Azərbaycanın müvafiq strukturları ilə çox uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi və bu əməkdaşlığın təcrübə qazanmaq baxımından əhəmiyyətini vurğuladı. O, təmsil etdiyi şirkətlə "Quantelo" şirkəti arasında həyata keçiriləcək əməkdaşlığın perspektivləri barədə də danışdı, vahid məlumatlar sisteminin yaradılması istiqamətində görülən işləri qeyd etdi və bunun ümumi daxili məhsulun artımı, iş yerlərinin yaradılması və innovasiyaların tətbiq edilməsi işinə xidmət edəcəyini bildirdi. Qay DİTRİX "Ağıllı məktəblər" layihəsinə toxunaraq dedi:

- Cənab Prezident, ümumi məqsədimiz bir-biri ilə bağlantısı olan "Ağıllı məktəblər" və təhsil proqramlarını yaratmaqdır ki, bu sahədə qlobal liderlik qazanılsın. Sizin qeyd etdiyiniz miqyas və öhdəlik tam uyğundur. Biz bunun öhdəsindən gələ və təhsilin səviyyəsini qaldıra bilərik. Həmin bir-biri ilə bağlantısı olan məktəblər vasitəsilə Sizin dünyadakı statusunuz qalxacaq.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Siz haqlı olaraq qeyd etdiyiniz kimi, biz iki mühüm tədbirin təşkilində Sizin əla avadanlığınızı istifadə etdik. Texniki nöqteyi-nəzərdən deyə bilərəm ki, hər iki tədbir çox gözəl baş tutdu, çünki bu iş asan deyildi. Əgər türkdilli dövlətlərin Sammiti cəmi bir neçə dövləti əhatə edirdisə, ikinci tədbirə gəldikdə, iştirakçılar qırxdan artıq idi. Orada, həmçinin beynəlxalq təşkilatlar var idi. Yeri gəlmişkən, ilk dəfə idi ki, Qoşulmama Hərəkatı və Avropa İttifaqı eyni tədbirdə iştirak edirdi. Əvvəllər, bu, heç zaman baş verməmişdir. Azərbaycan həmin iki mühüm beynəlxalq tədbiri başladı. Təbii ki, onların hər ikisi koronavirusla və beynəlxalq səviyyədə onunla mübarizə ilə əlaqəli idi. Sizə deyə bilərəm ki, texniki dəstək əla idi. Mən bu fürsətə görə minnətdaram. Hazırda bu imkanlardan sizinlə söhbət etmək üçün istifadə edirik. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, mənim sizin əla sisteminiz vasitəsilə həmkarlarımızla, yəni, dövlət başçıları ilə artıq bir neçə söhbətim olub. Lakin bu, ilk dəfədir ki, mən şirkətin rəhbərləri ilə bu cür söhbət edirəm. Fikrimcə, xoş təsadüfdür ki, bu, CISCO-dur.



Bu, ölkələrimiz arasında çox sıx və deyərdim ki, strateji tərəfdaşlığı nümayiş etdirir. İlk bu cür söhbət apardığım şirkət Birləşmiş Ştatları təmsil edən şirkətdir. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, dünən mən Prezident Trampdan məktub almışam. O, məni və Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə təbrik edib. Öz məktubunda Prezident Tramp yazır ki, təxminən 30 ildir Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi, enerji təchizatının şaxələndirilməsini, siyasi islahatlar məsələlərini təmin etmək üçün birgə işləyirlər. Həmin məktubda, o, xüsusi olaraq qeyd edir ki, iki böyük dövlətimiz gələcəkdə daha çox işlər görəcək. Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür.

Qeyd etdiyiniz məsələlərə gəldikdə, biz onları əvvəllər müzakirə etmişik. Şadam ki, Davosda keçirdiyimiz görüşdən sonra böyük irəliləyişə nail olmuşuq. Heyətim mənə məlumat verib ki, bu sahələrdə, xüsusən də müzakirə etdiyimiz kimi "Ağıllı şəhər" layihəsi sahəsində işlər yaxşı gedir. İndi isə siz yeni "Smart ölkə" ideyası ilə çıxış edirsiniz. Nəinki şəhər infrastrukturu, nəqliyyat, dayanacaq yerləri və bəzi digər şəhər infrastrukturu, o cümlədən qlobal "Smart ölkə" konsepsiyası ortaya çıxır və biz onu tam dəstəkləyirik. Söylədiyiniz kimi, o, təhsili, kibertəhlükəsizliyi, səhiyyəni və əvvəlcə müzakirə etdiyimiz kimi, əlavə edərdim ki, kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunmasını əhatə edir. Mən buna sonradan qayıdacağam. Lakin ilk olaraq mənə sizin "Quantela" şirkəti ilə əməkdaşlığınız haqqında məlumat verildi. Əlbəttə ki, biz bunu tam dəstəkləyirik. "Smart ölkə" layihəsinin inkişaf gündəliyi üzrə tam tədqiqatın, bir növ "yol xəritəsi"nin hazırlanması da fikrimcə, çox faydalı olardı.

Bundan sonra, qarşımızda tam mənzərə aydınlaşacaq. Atacağımız addımların planı hazır olacaq və yekun nəticə çıxacaq və bu nəticəyə nail olmaq üçün hansı növ ehtiyatların toplanmasına ehtiyac duyulduğunu da biləcəyik. Hazırkı vəziyyətdə "bir-biri ilə bağlantısı olan məktəblər" və təhsil proqramı üçün verdiyiniz dəstək çox vacibdir, çünki sizə məlumat vermək istəyirəm ki, məktəblərimiz və universitetlərimiz koronavirusa görə martın əvvəlindən bağlanıb və tədris ilinin sonuna qədər onlar, birmənalı olaraq, açılmayacaq. Koronavirusla bağlı işlərin gedişini, onun necə olacağını hələ görməliyik. Bu günə qədər vəziyyət nəzarət altındadır. Çox az sayda ölənlər var və ciddi məhdudlaşdırıcı tədbirlər sayəsində yoluxmuş insanların sayı da nisbətən aşağıdır. Lakin hazırda biz dünyanın demək olar ki, bütün ölkələri kimi artıq açılış prosesindəyik. Buna görə məsafədən təhsil imkanları həqiqətən çox vacibdir. Əgər bizdə bütün məktəblərimizin tam bağlantısı olan sistem olarsa, onda bu, çox böyük imkana çevriləcək. Siz dediyiniz kimi, bu halda Azərbaycan aparıcı ölkələrdən biri olacaq.

Kibertəhlükəsizliklə bağlı məsələyə gəldikdə, biz bunu, həmçinin əvvəllər müzakirə etmişik. Əvvəlcə müzakirə etdiyimiz kimi və mən də qeyd etdiyim kimi, həmin yeni islahatlar gündəliyində əsas məqsəd ümumi daxili məhsulu artırmaq, iş yerlərini açmaq və bunun üçün innovativ texnologiyalardan istifadə etməkdən ibarətdir.

Hazırkı koronavirus şəraitində, əvvəlcə qeyd etdiyim kimi, bu məsələlər daha da vacibdir. Çünki demək olar ki, bütün ölkələrin ümumi daxili məhsulu zərbə altındadır. Bununla belə, bu ilin dörd ayında bizdə ümumi daxili məhsulun artımı 0.2 faiz səviyyəsində olub. Lakin anlayırıq ki, növbəti ay çox güman bu göstərici də aşağı düşəcək. Sənaye sektorunda vəziyyət daha yaxşıdır. Bizim qeyri-enerji sənayesində 13 faizdən artıq artım olub. Lakin, əlbəttə, koronavirus ümumi daxili məhsula və iş yerlərinə zərbə vurur, çünki biz, təbii ki, işsizliyin artmasını hesablayacağıq. Amma onun qarşısını almaq üçün 2 milyard avro həcmində çox ciddi iqtisadi və sosial paketi işə salmışıq. İqtisadiyyatın hazırda tam bağlandığı sahələrdə işlərini itirmiş insanları qorumaq üçün bunu edirik. Məsələn, turizm. O, indi sıfır səviyyəsindədir. Bir sözlə, bu məsələlər hazırda daha çox əhəmiyyət kəsb edir. Hesab edirəm ki, biz diqqətimizi onun üzərinə yönəldəyəcəyik.

İndicə danışdığımız məsələlərdən başqa, fikrimcə, biz digər sahələrdə də işləyə bilərik. Bilirəm ki, siz kənd təsərrüfatının rəqəmsallaşdırılması ilə bağlı artıq təmasdasınız. Bu sektor hazırkı vəziyyətdə neft qiymətlərinin tənəzzülü ilə aparıcı sektorlardan biri olacaq. Buna görə kənd təsərrüfatı məşğulluq, ərzaq təhlükəsizliyi və ixrac deməkdir. Gözəçarpan nəticələrə nail olmaq üçün bizim su ehtiyatlarımıza çox ciddi elektron nəzarət sistemimiz olmalıdır. Elə bu yaxınlarda mən Baş Nazirin müavininin rəhbərliyi altında xüsusi dövlət komissiyasının yaradılması ilə bağlı sərəncam imzalamışam. Onlar artıq işə başlayıblar. Bir çox nazirlər həmin komissiyanın üzvləridir, çünki bizim çoxlu itkilərimiz olub. Ötən il isə bizdə çox ciddi quraqlıq oldu. Bu il, həmçinin gözlənilir. Düzdür, daha yüngül olsa da, amma yenə də proqnozlaşdırılmayan haldır. Hava şəraiti gözlənilməz şəkildə dəyişir.

Beləliklə, su ehtiyatlarımızın düzgün qiymətləndirilməsi, layihənin prioritetlərinin müəyyənləşdirilməsi, su ehtiyatlarının və balansın elektron idarə edilməsi qarşıdan gələn illərdə bizim üçün ən vacib məsələdir.

Azərbaycanda infrastruktur layihələrinin əksəriyyətinin artıq tamamlandığını nəzərə alsaq, bu, infrastruktur layihələri sırasında bir nömrəli layihə olacaqdır ki, onun icrası nəticəsində su ehtiyatlarına nəzarət, idarəedilmə və bərabər bölgü təmin olunacaq. Çünki burada narahatlıq doğuran məsələlərdən biri odur ki, bəzən su ehtiyatlarının paylanılması zamanı yerli icra orqanları bunu qeyri-bərabər şəkildə edirlər və nəticədə müəyyən şirkətlər qrupu əsassız üstünlük əldə edir. Bu ədalətsizlik isə öz növbəsində, ciddi çətinliklər yaradır. Bu səbəbdən hesab edirəm ki, bu məsələ də bizim gündəliyimizə əlavə edilə bilər və beləliklə, biz gələcəkdə hansı işlərin görüləcəyi ilə bağlı geniş mənzərəyə malik olacağıq.

**Qay DİTRİX:**

- Çox gözəl. Cənab Prezident, biz çağırışları sevirik. Su ehtiyatlarının idarə edilməsi dünyanın hər yerində çağırışdır. Biz bu sahədə bir sıra layihə və texnologiyalara malikik. Bu, təkcə su ehtiyatlarının idarə edilməsi və nəzarət deyil. Buraya müvafiq sahədə qanunvericilik də daxildir. Çünki dünyanın elə bölgələri var ki, orada infrastruktur olduqca inkişaf etmiş səviyyədədir, lakin orada boru kəmərlərinin zədələnməsi nəticəsində böyük su itkisi baş verir. Mən iki layihəni nəzərdə tuturam ki, biz pilot layihə çərçivəsində orada sensor texnologiyasının tətbiqi və su ehtiyatları sahəsində qanunvericiliklə bağlı məlumatın toplanılması ilə məşğuluq. Biz, əlbəttə, Sizinlə də bu sahədə çalışa bilərik.

Daha bir mövzu "Ağıllı kənd təsərrüfatı"dır. Siz bu sahədə olduqca irəlidəsiniz və Sizin kənd təsərrüfatının inkişafı ilə bağlı baxışınızı reallaşdırmaq üçün müvafiq texnologiyalar artıq mövcuddur.

Azərbaycan Prezidentinin köməkçisi **Şahmar MÖVSÜMOV** "Ağıllı şəhər" layihəsinə toxundu və bu istiqamətdə görülən işlərdən danışaraq dedi:

- Çox təşəkkür edirəm, cənab Prezident. CISCO şirkəti ilə çox yaxşı əməkdaşlığımız var. Biz irəli sürülmüş və tərəfinizdən qəbul edilmiş "Smart ölkə" ideyası üzərində çalışacağıq. Düşünürəm ki, bu istiqamətdə "yol xəritəsi"nin, büdcənin və bütün vacib göstəricilərin olması çox önəmlidir. Ümid edirəm ki, "Ağıllı şəhər" layihəsinin icrası mərhələsi yaxınlaşanda biz artıq bu koronavirus məsələsini geridə qoyaraq normal həyata dönəcəyik. Təşəkkür edirəm.

Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri **Ramin QULUZADƏ** CISCO şirkəti ilə əməkdaşlığa toxundu və indiyədək həyata keçirilən layihələrdən danışaraq dedi:

- Cənab Prezident, hörmətli həmkarlar. CISCO şirkəti ilə əməkdaşlığımız koronavirus pandemiyası dövründə də uğurla davam etmişdir. CISCO şirkətinin bulud platforması və şəbəkə texnologiyalarından istifadə etməklə videokonfrans şəklində mühüm tədbirlər təşkil edilmişdir. Bununla yanaşı, müvafiq texnologiyalar vasitəsilə tərəfimizdən dövlət qurumları üçün virtual görüşlərin təşkili və onlayn xidmətlər təklif edilir. Hazırda biz 8 rəqəmsal prioritet üzərində çalışırıq.

**Prezident İlham ƏLİYEV:**

- Hesab edirəm ki, bugünkü müzakirəmiz olduqca vacib və ümidverici idi. Bu təşəbbüslərin tərəfinizdən dəstəklənməsinə görə sizə bir daha təşəkkür edirəm. Biz ölkəni müasirləşdirmək arzusunda olduğumuzla bağlı çoxlu müzakirələr aparmışıq və hər kəs anlayır ki, müasir texnologiyalar olmadan bu, mümkün deyil. Bu səbəbdən, zənnimcə, bu gün müzakirə etdiklərimiz icra olunacaq, çünki əvvəl planlaşdırdığımız bütün təşəbbüslər artıq həyata keçirilib.

Su ehtiyatlarının idarə edilməsi məsələsinə qayıdaraq, siz su itkisi məsələsini düzgün qeyd etdiniz və bizdə də belə problem var. Bəzi hallarda Azərbaycanda su itkisi 40 və hətta 50 faiz təşkil edir. Biz yalnız su itirmirik, biz həm də torpağa ziyan vururuq, çünki torpaq yuyulur və daha sonra kənd təsərrüfatı üçün yararsız olur. Düşünürəm ki, səylərimizi birləşdirərək və sizin təcrübənizdən faydalanaraq biz məhsuldarlığı artırmaqla böyük uğura nail ola bilərik.

Bizim münbit torpaq ehtiyatımız məhduddur. Kənd təsərrüfatı məhsulları ilə özümüzü təmin etmək və ixrac qabiliyyətimizi gücləndirmək üçün biz məhsuldarlığı artırmalıyıq. Bu isə yalnız müasir texnologiyaların tətbiqi nəticəsində mümkündür.

Sonra CISCO şirkətinin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti **Conatan SPƏRROU** çıxış edərək dedi:

- Cənab Prezident, həmkarlarımın burada dediklərinə mən də qoşuluram. CISCO şirkətinin Azərbaycan Respublikası ilə əməkdaşlığı fantastik olmuşdur və biz bu əməkdaşlığın davamlı olmasını arzulayırıq.

Daha sonra CISCO-nun Azərbaycan üzrə regional direktoru **Vladimir ORLOV** çıxış edərək dedi:

- İstərdik ki, Beynəlxalq Avtovağzal Kompleksi regionda icra etdiyimiz bütün pilot layihələr sırasında parlayan bir ulduz olsun. İstərdik ki, şəhərdə tətbiq oluna biləcək bütün texnologiyalar burada istifadə edilsin və biz daha sonra bu layihəni digər dövlətlərə də təklif edəcəyik. "Smart ölkə" layihəsi uzunmüddətli perspektivdə ölkə üçün faydalı olacaq. Burada söhbət yalnız vahid ölkə idarə lövhəsi layihəsindən getmir. Buraya səhiyyə, neft-qaz və digər arzuladığınız sahələr də əlavə edilə bilər. Kibertəhlükəsizlik sahəsində biz "Azərenerji" ilə əməkdaşlıq edirik.

**Prezident İlham ƏLİYEV:**

- Təşəkkür edirəm. Hesab edirəm ki, yeni əməkdaşlıq formatımızın strukturu rəsmi müəyyən edildikdən sonra bizim qısamüddətli icra planımız olmalıdır, çünki bizim bu məsələlərə ciddi ehtiyacımız var. Müasir dünyada təhlükəsizlik bir nömrəli məsələdir və buraya enerji təhlükəsizliyi də daxildir. Bu səbəbdən kiberhücumlara qarşı müdafiənin bizim üçün əhəmiyyəti daha da artacaq. Bu yaxınlarda, pandemiya vaxtı mən "Azərenerji"nin əməliyyat mərkəzinin açılışında iştirak etdim və burada SCADA sistemi daxil olmaqla bütün əməliyyat sistemləri çalışır. Bizim enerji infrastrukturunun müasirləşdirilməsi ilə bağlı böyük planımız var. Mövcud elektrik stansiyalarında yenidənqurma və təmir işləri aparmaqla biz elektrik enerjisi istehsalında ən azı 600 meqavatlıq artım əldə edə bilmişik. Yəni yalnız resursların optimallaşdırılması sayəsində biz səmərəliliyi artıraraq böyük generasiya gücü əldə etmişik. Beləliklə, bu, əlbəttə, bizim üçün prioritet təşkil edən məsələ olacaq. Səhiyyəyə gəldikdə, hər kəsə aydın oldu ki, koronavirusla uğurlu mübarizədə bu, mühüm amildir. Bütün məhdudlaşdırıcı və təşkilati tədbirlərlə yanaşı, burada həlledici rolu xəstələri müalicə edən həkimlər oynayır. Bu səbəbdən çox qısa müddət ərzində bizim səhiyyə sistemimiz restrukturizasiya olundu. Biz ən yaxşı xəstəxanalarımızı koronavirus xəstələrinin ixtiyarına verdik. Bu gün 20-dən artıq xəstəxana istifadə edilir. Deyə bilərəm ki, bəzi ölkələrdə ölüm hallarının yüksək səviyyədə olmasının səbəbi xəstəxanalarda çarpayı qıtlığı ilə əlaqəlidir. Onlar fiziki olaraq bütün xəstələri qəbul edə bilmir. Koronavirusun ikinci dalğası baş verdiyi halda Azərbaycanda kifayət qədər əlavə çarpayı mövcuddur. Beləliklə, səhiyyə sisteminin müasirləşdirilməsi heç vaxt olmadığı qədər əhəmiyyətlidir, çünki koronavirusun nə vaxta qədər yayılacağını heç kəs bilmir.

CISCO-nun Ukrayna üzrə regional direktoru **Oleq BODNAR** kibertəhlükəsizlik sahəsində əməkdaşlıqdan danışdı. Su itkisi məsələsinə gəldikdə isə o dedi:

- Su itkisi məsələsinə gəldikdə, bu, maraqlı mövzudur və bu sahədə regionda bizim hazırda həyata keçirdiyimiz layihə yoxdur. Bu baxımdan Avropa və Amerikada olan təcrübəni Azərbaycana gətirmək çox yaxşı olardı. Sizinlə çalışmaq fürsətinə görə təşəkkür edirəm.

Xanım **Kelli KRAMER** dedi:

- CISCO heyəti və Azərbaycan arasında keçirilən bu görüş çox səmərəlidir. Cənab Prezident, Sizin kimi liderin texnologiyaya belə açıq olması və onun ölkə üzrə tətbiqinə hazır olması məmnunedici haldır. Şadam ki, CISCO bu sahədə Sizinlə əməkdaşlıq edir və hesab edirəm ki, qeyd etdiyimiz məsələlərin icrasını sürətləndirə bilərik. Bu əməkdaşlığın davamlı olmasını arzulayıram. Siz təkcə regionda deyil, dünya çapında texnologiyaya dəstək verən liderlərdənsiniz və bu işdə öndə getdiyinizə görə Sizə təşəkkür edirəm. Düşünürəm ki, biz bu tərəfdaşlığı yaratmaqla ölkəniz haqqında da çox şey öyrənə bilərik.

**Prezident İlham ƏLİYEV:**

- Çox təşəkkür edirəm. Əməkdaşlığa və dəstəyinizə görə sizə minnətdaram. Əminəm ki, bizim strateji tərəfdaşlığımız yalnız güclənəcək. Çünki bizim ölkənin müasirləşdirilməsi ilə bağlı gündəliyimiz, sizin isə texnologiyanız var. Bizim uzun illərdir ki, əməkdaşlıq təcrübəmiz var. Artıq qeyd etdiyim kimi, burada layihələrin uğurlu icrası birgə səylərimizin ən yaxşı təzahürüdür. Bizim baxışlarımız tam üst-üstə düşür və potensialımızı səfərbər etməklə biz nisbətən qısa müddət ərzində çox işlər görə bilərik. Bu isə bizim Azərbaycanın müasirləşdirilməsi baxışımıza tam uyğun olacaq. Koronavirus pandemiyası başa çatdıqdan sonra sizi Bakıda görməyə ümid edirəm. Xatırlayıram ki, sizi buraya dəvəm etmişəm və beləliklə, müzakirəmizi regional formatda davam etdirə bilərik.

Xanım **Kelli KRAMER:**

- Əlbəttə. Biz bu qorxunc pandemiyaya qədər artıq hər bir şeyi planlaşdırmışdıq və vəziyyət yaxşılaşdıqdan sonra mütləq səfər edəcəyik. Hər şeyə görə çox sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Sizə ən xoş arzularımı çatdırıram. Bu müzakirələrə görə sağ olun.

## Ə.V.Nağıyevin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin beynəlxalq əlaqələr üzrə müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. General-leytenant Əfqan Vəli oğlu Nağıyev Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin beynəlxalq əlaqələr üzrə müavini vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2020-ci il*

## "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053; 2017, № 7, maddə 1288; 2019, № 1, maddə 28) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.3-1-ci maddə əlavə edilsin:

"3.3-1. Bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslər üzrə gündəlik hər bir belə fiziki şəxs üçün nağd qaydada ödənilə bilən məbləğin yuxarı həddi iyirmi manat məbləğində müəyyən edilir və həmin məbləğ bu Qanunun 3.3-cü maddəsi ilə müəyyən edilmiş nağd əməliyyat həddinə daxil edilmir.".

2. 3.5.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.5.5-ci maddə əlavə edilsin:

"3.5.5. xam dərinin tədarükü (alışı).".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

## 2019-cu il dövlət büdcəsinin icrası haqqında Qanun layihəsi Milli Məclisə təqdim edilib

2019-cu il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanun layihəsi və 2019-cu il dövlət büdcəsinin icrası barədə hesabat Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim olunub.

Bu barədə AZƏRTAC-a Maliyyə Nazirliyindən bildirilib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza Malta Respublikasının xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan yaxşı münasibətlər xalqlarımızın qarşılıqlı mənafeyi naminə bundan sonra daha da möhkəmlənməkdə davam edəcəkdir. İnanıram ki, qarşılıqlı maraq kəsb edən sahələrdə, o cümlədən Şərq Tərəfdaşlığı çərçivəsində ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi üçün ölkələrimiz qarşısında aşkarlanması zəruri olan çoxsaylı imkanlar mövcuddur.

Bundan əlavə, COVID-19 pandemiyasının yayılması ilə bağlı yaranmış mövcud şəraitdə beynəlxalq ictimaiyyətin həmrəylik nümayiş etdirməsi və bütün ölkələrin bəşəriyyət qarşısında presedenti olmayan bu çətinliyin öhdəsindən gəlmələri üçün güclərini birləşdirmələri mütləqdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və əmin-amanlıq, ölkənizə sülh, tərəqqi və firavanlıq arzu edirəm.

Zatı-aliləri, Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Corc VELLA,***
***Malta Respublikasının Prezidenti***

❖ ❖ ❖

Bu çətin zamanda milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə ən səmimi salamlarımı və Azərbaycan xalqına ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

*Hörmətlə,*

***Ülyahəzrət II ELİZABET,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

COVID-19 pandemiyası ilə bağlı bu çətin zamanda yaranmış xoş fürsətdən istifadə edərək, şəxsən Sizə əmin-amanlıq, həmçinin Azərbaycan xalqına xoşbəxt və firavan gələcək dolu ən gözəl arzularımı çatdırıram.

*Hörmətlə,*

***Aleksander Van der BELLEN,***
***Avstriya Respublikasının Federal Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını Qazaxıstan xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan öz dövlətçiliyinin möhkəmləndirilməsində, xalqının rifahının yaxşılaşdırılmasında və beynəlxalq arenada nüfuzunun artırılmasında mühüm tərəqqiyə nail olub. Bununla əlaqədar olaraq, ölkənizə daim inkişaf etməyi və Sizin rəhbərliyinizlə yüksək nailiyyətlərə çatmağı arzulayıram.

Əminəm ki, Qazaxıstan ilə Azərbaycanın ənənəvi dostluq və həmrəylik üzərində qurulan strateji münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, ali dövləti vəzifənizdə Sizə böyük uğurlar, dost Azərbaycan xalqına firavanlıq və tərəqqi arzu edirəm.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Ümid edirəm ki, ölkələrimiz arasında illər boyu inkişaf edən dostluq və əməkdaşlıq əlaqələri öz gözəl bəhrəsini verəcəkdir. Bunun üçün Sizinlə daha yaxından əməkdaşlıq etməyi arzulayıram.

Zati-alinizə bir daha möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan Respublikasına daimi firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Mun CE-İN,***
***Koreya Respublikasının Prezidenti***

# "Sərhəd mühafizə orqanları haqqında", "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1553-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

1. "Sərhəd mühafizü orqanları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 209; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 15; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199; 2007, № 6, maddə 560, № 11, maddə 1078; 2013, № 2, maddə 94; 2016, № 1, maddə 10; 2017, № 4, maddə 519, № 12 (I kitab), maddə 2201; 2018, № 7 (I kitab), maddə 1402) 2-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində "hərbi peşə təhsili məktəblərindən" sözləri "xüsusi təyinatlı təhsil müəssisələrindən" sözləri ilə əvəz edilsin.

2. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881) 14.8-1-ci maddəsində "dövlət," sözü "bütün tipdən olan dövlət təhsil müəssisələrində, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində, habelə" sözləri ilə əvəz edilsin.

3. "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685) 13.8-ci maddəsinin birinci cümləsində "Peşə" sözü "Dövlət peşə" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bələdiyyə və özəl peşə təhsili müəssisəsində təhsilverənlərin attestasiyası keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2020-ci il*

# "Sərhəd mühafizə orqanları haqqında", "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 17 aprel tarixli 51-VIQD nömrəli Qanununun tətbiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sərhəd mühafizə orqanları haqqında", "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 17 aprel tarixli 51-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.8-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14.8-1-ci maddəsində "elmi təşkilat" dedikdə Azərbaycan Milli Elmlər Akademiyası nəzərdə tutulur.

2. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 3, maddələr 403, 405, № 5, maddə 847, № 8, maddə 1398) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "1.0.54-cü" sözlərindən sonra " ,14.8-1-ci" sözləri əlavə edilsin;

2.2. 2.11-ci bəndə "1.0.54-cü," sözlərindən sonra "14.8-1-ci," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2020-ci il*

# "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1528-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alır:**

**Maddə 1.** "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472; 2001, № 3, maddə 148; 2002, № 5, maddə 238; 2003, № 4, maddə 178; 2004, № 2, maddə 57, № 4, maddə 201; 2008, № 2, maddə 47; 2009, № 10, maddə 769; 2013, № 3, maddə 209; 2014, № 4, maddə 338, № 10, maddə 1152; 2016, № 12, maddə 2011; 2017, № 2, maddə 142, № 6, maddə 1013, 2018, № 7 (I kitab), maddə 1398; 2019, № 1, maddə 20) 62-ci maddəsinin ikinci hissəsinin 2.8-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. geoloji parklar.".

**Maddə 2.** "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 316; 2005, № 4, maddə 272; 2008, № 6, maddə 460; 2014, № 11, maddə 1355; 2015, № 4, maddə 362) 21.2-ci maddəsində "milli və təbiət parklarının" sözləri "milli, geoloji və təbiət parklarının" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12 (I kitab), maddə 2271; 2018, № 5, maddə 890, № 6, maddələr 1184, 1185; 2019, № 1, maddə 34, № 3, maddə 392, № 6, maddə 987) 26-cı maddəsində aşağıdakı dəyişiklər edilsin:

3.1. 1-ci hissədə "təbii (milli) dendroloji" sözlərindən sonra ", geoloji" sözü əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Geoloji parkların torpaqları xüsusi geoloji, coğrafi, tarixi, estetik dəyərə malik olan torpaq sahələri hesab edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

# "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Elm haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1366; 2018, № 11, maddə 2198) aşağıdakı dəyişikliklər edilsin:

1. 16.3-cü maddəyə "müəssisələrin" sözündən sonra "(təşkilatların)" sözü əlavə edilsin.

2. 24-cü maddə üzrə:

2.1. adına "müəssisənin" sözündən sonra "(təşkilatın)" sözü əlavə edilsin;

2.2. 24.1-ci və 24.5-ci (hər iki halda) maddələrə "müəssisələrin" sözündən sonra "(təşkilatların)" sözü əlavə edilsin;

2.3. 24.4-cü maddə üzrə:

2.3.1. birinci cümləyə "müəssisələrin" sözündən sonra "(təşkilatların)" sözü əlavə edilsin;

2.3.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Elmi müəssisələrin (təşkilatların) akkreditasiyası ali attestasiya orqanı tərəfindən həyata keçirilir.";

2.4. 24.6-cı maddə üzrə:

2.4.1. birinci cümləyə "müəssisələrə" sözündən sonra "(təşkilatlara)" sözü əlavə edilsin;

2.4.2. ikinci cümləyə "müəssisə" sözündən sonra "(təşkilat)" sözü əlavə edilsin;

2.5. 24.7-ci maddəyə "müəssisələr" sözündən sonra "(təşkilatlar)" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

# "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 472; 2001, № 3, maddə 148; 2002, № 5, maddə 238; 2003, № 4, maddə 178; 2004, № 2, maddə 57, № 4, maddə 201; 2008, № 2, maddə 47; 2009, № 10, maddə 769; 2013, № 3, maddə 209; 2014, № 4, maddə 338, № 10, maddə 1152; 2016, № 12, maddə 2011; 2017, № 2, maddə 142, № 6, maddə 1013; 2018, № 7 (I kitab), maddə 1398; 2019, № 1, maddə 20) 1-ci maddəsinin 2-ci hissəsinə "Azərbaycan Respublikasının" sözlərindən əvvəl ", "İctimai iştirakçılıq haqqında" sözləri əlavə edilsin.

Maddə 2. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1397; 2019, № 6, maddə 991, № 12, maddə 1917) 1.2-ci maddəsinə "Ətraf mühitin mühafizəsi haqqında" sözlərindən sonra ", "İctimai iştirakçılıq haqqında" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

# "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli 57-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1370; 2017, № 11, maddə 2028; 2019, № 7, maddə 1231) 2.3-cü bəndində "və ikinci cümlələrində" sözləri "cümləsində" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2020-ci il*

# "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İordaniya Dəniz Komissiyası arasında Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiyanın (əlavələrlə) I/10-cu qaydasına uyğun olaraq sertifikatların (diplomların) tanınması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İordaniya Dəniz Komissiyası arasında Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiyanın (əlavələrlə) I/10-cu qaydasına uyğun olaraq sertifikatların (diplomların) tanınması haqqında" 2019-cu il dekabrın 10-da Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

# Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında energetika və mədənçilik sahələrində əməkdaşlığa dair 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2020-ci il*

# Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında maliyyə yardımının tətbiqi Protokolunun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında maliyyə yardımının tətbiqi Protokolu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2020-ci il*

# Baş Nazir Azərbaycanda iş və istirahət günlərinin yerinin dəyişdirilməsi və xüsusi karantin dövründə qeyri-iş günlərinin müəyyən edilməsi haqqında Qərar imzalayıb

**Baş Nazir Əli Əsədov Azərbaycan Respublikasının ərazisində iş və istirahət günlərinin yerinin dəyişdirilməsi və xüsusi karantin dövründə qeyri-iş günlərinin müəyyən edilməsi haqqında Qərar imzalayıb.**

AZƏRTAC xəbər verir ki, Qərara əsasən, Azərbaycan Respublikasının ərazisində iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2020-ci ilin 27 may iş günü ilə 31 may istirahət gününün yerləri dəyişdirilir.

Xüsusi karantin dövründə xüsusi iş (əmək) rejimi olaraq 2020-ci il 29 may tarixi, habelə altıgünlük iş həftəsində çalışanlar üçün 23 və 30 may tarixləri qeyri-iş günləri müəyyən edilir.

Bu Qərarın müvafiq bəndində nəzərdə tutulan qeyri-iş günləri üçün işçilərin əməkhaqları saxlanılır. Xüsusi iş (əmək) rejiminin tətbiq edilməsi ilə əlaqədar 2020-ci ilin istehsalat təqvimi və iş vaxtı norması dəyişdirilmir.

# Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə seçki dairələrini təmsil edən deputatların köməkçiləri ilə görüş olub





Mayın 15-də Milli Məclisin plenar iclas zalında Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə seçki dairələrini təmsil edən deputatların köməkçiləri ilə görüş keçirilib. Bu barədə AZƏRTAC-a parlament Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Aparat rəhbərinin müavini Yaşar Əməşov, Milli Məclis Aparatında yeni yaradılmış İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Milli Məclisin Sədri iclası açaraq bildirdi ki, görüşün məqsədi deputat köməkçiləri ilə qarşıda dayanan vəzifələr barədə fikir mübadiləsi aparmaqdır.

Spiker vurğuladı ki, hazırda Azərbaycan öz inkişafının yeni mərhələsini yaşayır. 2018-ci ilin Prezident seçkilərindən sonra dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrini əhatə edən struktur və kadr islahatları geniş vüsət alıb. Ölkəmizin qanunvericilik orqanı da bu islahatlardan kənarda qala bilməzdi. Bu il fevralın 9-da keçirilən növbədənkənar seçkilər nəticəsində parlamentin yeni tərkibi formalaşıb və altıncı çağırış Milli Məclis fəaliyyətə başlayıb. Prezident İlham Əliyev Milli Məclisin birinci iclasında söylədiyi proqram xarakterli nitqində digər məsələlərlə yanaşı, qanunvericilik orqanı qarşısında dayanan vəzifələri də müəyyən edib. Bizim fəaliyyətimizin yol xəritəsi olan bu nitqində cənab İlham Əliyev dövlətin və cəmiyyətin parlamentdən gözləntilərini ifadə edib.

Bu gözləntilərin nədən ibarət olması barədə spiker dedi ki, ilk növbədə, qanunvericilik fəaliyyəti təkmilləşdirilməli, yeni qanunların hazırlanması zamanı daha çox keyfiyyətə fikir verilməlidir. Qanunların qəbulu ilə yanaşı, onların icrasına nəzarət də gücləndirilməlidir.

Azərbaycan həqiqətlərinin, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı düzgün məlumatların dünyaya çatdırılması üçün deputatlar beynəlxalq təşkilatlarda daha məqsədyönlü fəaliyyət göstərməlidirlər. Ən vacib vəzifələrdən biri isə budur ki, deputatlar seçildikləri dairələrdə fəal iş aparmalı, seçicilərlə daim təmasda olmalıdırlar. İnsanları narahat edən məsələlərin Milli Məclisdə, eləcə də digər dövlət orqanları qarşısında qaldırılması deputatlıq fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil etməlidir.

Sədr vurğuladı ki, əlbəttə, deputatların vəzifələri bununla bitmir. Bu vəzifələrin uğurla yerinə yetirilməsində siz köməkçilərin üzərinə böyük məsuliyyət düşür. O, deputat köməkçilərinə müraciət edərək söylədi ki, siz öz fəaliyyətinizdə bu məqamı daim nəzərə almalısınız. Deputat köməkçisinin əsas vəzifələrindən biri deputatın fəaliyyətlərinin həyata keçirilməsinə təşkilati-texniki kömək göstərmək və onun tapşırığı ilə müxtəlif funksiyaları yerinə yetirməkdir. Yaxşı köməkçi deputatın səlahiyyət və vəzifələrinin nədən ibarət olduğunu dəqiq bilməli, müəyyən mənada deputatın həmfikri olmalıdır.

Sahibə Qafarova çıxışında koronavirus pandemiyası ilə əlaqədar yaranmış vəziyyətə də toxundu. Qeyd etdi ki, pandemiya ilə əlaqədar tətbiq edilən məhdudiyyətlər seçki dairələrində fəaliyyətə də təsir göstərib. İndi seçicilərlə təmaslar məsafədən həyata keçirilir. Bununla bağlı müxtəlif formalar tətbiq edilir, o cümlədən onlayn rejimdə görüşlər keçirilir: "Siz seçicilərlə müntəzəm əlaqə saxlamalı, onların qayğı və problemlərini öyrənməli, dairənin ərazisində deputata bir növ bələdçilik etməyi bacarmalısınız. Əlbəttə, bu vəzifələri layiqincə yerinə yetirməyiniz üçün Milli Məclisin Aparatı sizə lazımi dəstək verəcək".

Sədr daha sonra söylədi ki, onun sərəncamları əsasında Milli Məclisdə struktur və kadr islahatları aparılıb. Bu barədə mətbuatda geniş məlumat verilib. Bir sıra şöbələr ləğv edilib, yeni şöbələr yaradılıb, parlament Aparatının fəaliyyəti müasir tələblər səviyyəsində qurulubdur: "Yeni yaradılan şöbələrdən biri İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsidir. Bu şöbənin fəaliyyətinin əsas istiqaməti qanunvericilik hakimiyyəti ilə icra hakimiyyəti arasında birgə fəaliyyəti və sıx əməkdaşlığı təşkil etməkdir. Ümumi işin səmərəsini artırmaq və vətəndaş məmnunluğunu təmin etmək üçün siz yeni şöbə ilə iş birliyi şəraitində çalışmalısınız".

Çıxışının sonunda sədr deputat köməkçilərinə gələcək fəaliyyətlərində uğurlar arzulayaraq dedi: "Ümid edirəm ki, siz üzərinizə düşən vəzifələrin öhdəsindən layiqincə gələcək, göstərilən yüksək etimadı doğrultmaq üçün əlinizdən gələni əsirgəməyəcəksiniz. Əminəm ki, məhz bu yolla siz Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsi məqsədilə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin ardıcıl davam etdirdiyi siyasi kursun uğurlarına parlamentin töhfəsinin artırılmasında yaxından iştirak etmiş olacaqsınız".

Görüşdə çıxış edən Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev bildirdi ki, ölkəmizdə aparılan islahatlar həyatın bütün sahələrini əhatə edir: "Bildiyiniz kimi, hər bir parlamentin 4 əsas funksiyası var: qanunvericilik, nəzarət, beynəlxalq əlaqələr və ən vacib funksiyalardan biri təmsilçilik funksiyası. Bu o deməkdir ki, Milli Məclis bütün Azərbaycan əhalisindən seçilmiş nümayəndələri özündə birləşdirir. Milli Məclisin deputatları hərəsi bir seçki dairəsinin tam səlahiyyətli nümayəndəsidir. Təmsilçilik funksiyasının həyata keçirilməsində isə deputat köməkçilərinin üzərinə böyük vəzifələr düşür. Müasir tələblərə görə deputat köməkçisi deputatın tapşırıqlarını yerinə yetirməklə yanaşı, Milli Məclis Aparatının müvafiq şöbələri ilə daimi əlaqədə olmalı, görülən işlər barədə hesabatları vaxtında təqdim etməlidir".

Səfa Mirzəyev diqqətə çatdırdı ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın bildirdiyi kimi, Prezident İlham Əliyevin bu il martın 10-da VI çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı parlamentin qarşısına qoyduğu vəzifələri yerinə yetirmək üçün biz öz işimizi yenidən qurmalı və əlimizdən gələni əsirgəməməliyik.

Sonra görüş Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşovun sədrliyi ilə davam etdirildi. Yaşar Əməşov deputat köməkçilərinə bu vəzifəyə təyin olunmaları münasibətilə təbriklərini çatdırdı. Bildirdi ki, parlament tarixində ilk dəfədir Milli Məclisin plenar iclas zalında deputat köməkçiləri ilə görüş keçirilir. Milli Məclis Aparatında yeni yaradılmış İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsi köməkçilərlə sıx işləyəcək.

Görüşdə çıxış edən Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri Rüstəm Mahmudov və Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin sektor müdiri Elşad İsmayılov deputat köməkçilərinin qarşısında dayanan vəzifələrdən danışdılar, onlara öz tövsiyələrini verdilər.

Tədbirdə VI çağırış Milli Məclisin ilk iclasında Prezident İlham Əliyevin çıxışı zamanı parlamentə verdiyi tövsiyələrə uyğun Milli Məclisdə görülən işlər, Aparatda aparılmış struktur və kadr islahatları, xüsusilə yeni çağırışlara uyğun deputat köməkçilərinə verilən tapşırıqlar barədə müzakirələr aparıldı, fikirlər dinlənildi.

Görüşün sonunda deputat köməkçilərini maraqlandıran suallara aydınlıq gətirildi.

# Beynəlxalq Ailə günü münasibətilə videokonfrans keçirilib

## Bahar MURADOVA: "Həm tarixi keçmişimiz, həm də nəsildən-nəslə ötürülən milli-mənəvi dəyərlərimiz və müasirliyə açıq xalq olmağımız bizə Beynəlxalq Ailə gününü əsl bayram kimi qeyd etməyə imkan verir"



BMT Baş Assambleyasının 1993-cü il 20 sentyabr tarixli qətnaməsinə əsasən 15 may Beynəlxalq Ailə günü elan edilib. Bu təşəbbüs bütün dünya dövlətlərinin diqqətini bir daha ailə məsələlərinə, ailə problemlərinin həllinə yönəltməyə xidmət edir.

Bu münasibətlə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mayın 15-də "Azərbaycan ailəsi pandemiya və postpandemiya dövründə: sosial-mədəni, psixoloji məqamlar" adlı videokonfrans təşkil olunub.

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Qoşqar Məhərrəmovun moderatorluğu ilə keçən videokonfransı giriş sözü ilə açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bu əlamətdar gün münasibətilə təbriklərini çatdırıb, həm tarixi keçmişimizin, həm də nəsildən-nəslə ötürülən milli-mənəvi dəyərlərimizin və müasirliyə açıq xalq olmağımızın bizə Beynəlxalq Ailə gününü əsl bayram kimi qeyd etməyə imkan verdiyini bildirib.

Komitə sədri Azərbaycanın beynəlxalq aləmin bir üzvü olaraq bu ənənəyə qoşulduğunu və bu məqsədlə 2008-ci ildən etibarən həyata keçirilən genişmiqyaslı layihələri, xüsusilə də regionları əhatə edən və təqribən hər il 80-ə yaxın ailənin iştirakı ilə baş tutan ailə bayramlarının keçirildiyini xüsusi vurğulayıb. Həmçinin pandemiya və postpandemiya dövrünün çətinliklərinin aradan qaldırılması istiqamətində görüləcək işlərin və atılacaq addımlar ətrafında müzakirələrin aparılmasının vacibliyinə toxunub. Qeyd olunub ki, bu dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz tərəfindən həm iqtisadi, həm də sosial-psixoloji məsələlər diqqətdə saxlanılıb, lazımi addımlar atılıb, ailəyə dəstəyin ən müxtəlif formaları həyata keçirilib. Təsadüfi deyil ki, ölkəmizdə görülən işlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilib.

Bahar Muradova ailədaxili ünsiyyətin, münasibətlərin, qarşılıqlı anlayışın, övladlarına görə hər iki valideynin məsuliyyətinin, ailənin cəmiyyət qarşısında məsuliyyətinin bu dövrdə nəzərə alınmaqla, dövlətin ailə siyasətinin həyata keçirilməsinə yeni çalarlar qatılmasının vacibliyini vurğulayıb. İndiki dövrdə komitə tərəfindən daha çox maariflənməyə, təhlilə və analizə üstünlük verildiyi bildirilib. "Hazırkı durum və postpandemiya bizi təhlil etməyə və bundan nəticələr çıxarmağa vadar edir ki, bu daha uzun perspektivə yönəlmiş layihələr işləyib hazırlamağa imkan yaradacaqdır", - deyə B.Muradova qeyd edib.

Ailə dəyərlərimizin uzun inkişaf yolu keçdiyini bildirən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda monoqam ailə sisteminin qədimdən qəbul olunduğunu və bu ənənənin davam etdiyini bildirib. Komitə sədri bütün dinlərin müqəddəs kitablarında ailənin roluna yüksək qiymət verildiyini bildirib, o cümlədən islamda ailənin qurulmasına, onun cəmiyyətdə roluna verilən önəmi xatırladıb. Dünyada ailə institutu ətrafında baş verən proseslərdən danışan M.Qurbanlı tarixi ənənələrə söykənən ailə ənənələrimizin qorunmasının vacibliyini vurğulayıb.

Milli Məclisin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili son 100 ildə dünya iqtisadiyyatının bu miqyasda böhranla üzləşmədiyini bildirib, əvvəlki dövrün böhranlarının daha çox maliyyə, istehsal sahələri ilə bağlı olduğunu, indiki halda isə bütövlükdə böhran vəziyyəti ilə xarakterizə olunduğunu vurğulayıb. Dövlətin böhranla əlaqədar rolunun və nəzarətinin artdığı müddətdə bu vəziyyətdən çıxma şanslarının yüksək olduğunu qeyd edən T.Mirkişili bildirib ki, burada dövlətin rolu artdıqca, paralel olaraq ailənin də rolu artacaqdır.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev çıxışında vətəndaşların formalaşmasında bir qurum olaraq ailənin, eyni zamanda, sağlam psixoloji iqlimin yaranmasında əsas mənbə olduğunu bildirib. Ailəsiz insan cəmiyyətinin mümkünsüzlüyünü vurğulayan deputat ümumbəşəri dəyərlərin istehsal və saxlanma mənbəyi kimi ailənin rolunu yüksək qiymətləndirib. "Psixoloji yardım haqqında" qanunun qəbul edildiyini və Nazirlər Kabineti tərəfindən psixoloji yardımın göstərilməsi ilə bağlı qaydaların təsdiq olunduğunu bildirən Bəxtiyar Əliyev dünyada ailə institutuna təsirlər fonunda "Ailə psixoloqu" institutunun formalaşdırılması işinin sürətlə davam etdirilməsinin əhəmiyyətli bir vasitə olduğunu diqqətə çatdırıb.

Sonra çıxış edən "Simurq" Mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədov Azərbaycan ailələrini bayram münasibətilə təbrik edib. O, insan kapitalının formalaşması və inkişafının cəmiyyətlər üçün əhəmiyyətini qeyd edərək yüksək mədəniyyətə malik şəxsin bu kapitalın əsas nüvəsini təşkil etdiyini deyib. Dünyanın müxtəlif dövlətlərinin (Finlandiya, Sinqapur, Yaponiya, Çin və s.) təcrübələrini müqayisəli təhlil edən kulturoloq insan kapitalının formalaşması, inkişafı və səmərəli istifadəsində bu ölkələrdə meritokratik tərbiyənin (cəmiyyət, dövlət üçün ləyaqətli vətəndaşların yetişdirilməsi) ailələrdə üstünlük təşkil etdiyini vurğulayıb. Fuad Məmmədov, həmçinin kulturoloji sahədə Dövlət Komitəsi ilə birgə müxtəlif formatda layihələrin, müsabiqələrin keçirilməsini də təklif edib.

Müzakirələrə yekun vuran Bahar Muradova videokonfrans iştirakçılarına təşəkkürünü bildirib, verilən təkliflərin Azərbaycan ailəsinin inkişafı istiqamətində gələcək fəaliyyət üçün mühüm olduğunu vurğulayıb.

# ABŞ beynəlxalq təhlükəsizliyin gücləndirilməsində Azərbaycanın rolunu yüksək dəyərləndirir

## Donald Tramp İlham Əliyevə məktubunda Birləşmiş Ştatların Azərbaycan xalqının yanında olduğunu növbəti dəfə bəyan etdi

*Əvvəli 1-ci səh.*

Bu baxımdan D.Trampın məktubunda ABŞ-ın Azərbaycanın müstəqilliyinə və suverenliyinə güclü dəstəyinin qeyd olunması iki ölkə arasındakı dərin siyasi münasibətlərin və tərəfdaşlığın növbəti təsdiqidir. Bu fikir həm də ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına dəstəyinin ifadəsidir.

Prezident D.Tramp məktubunda beynəlxalq təhlükəsizliyin gücləndirilməsi, Avropanın enerji marşrutlarının və mənbələrinin şaxələndirilməsində Azərbaycanın rolunu və töhfələrini yüksək dəyərləndirir, bu sahələr üzrə iki ölkə arasında 30 illik əməkdaşlığı xüsusi qeyd edir. Bu, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın beynəlxalq sülh, sabitlik və qlobal inkişafa verdiyi əhəmiyyətli töhfələrə və dövlətimizin beynəlxalq səviyyədə nailiyyətlərinə ABŞ-ın dövlət başçısı tərəfindən verilən yüksək qiymətdir. Məktubda iki böyük xalq ifadəsindən istifadə olunur ki, bu da ABŞ-ın dövlət başçısı səviyyəsində Azərbaycanın nüfuzlu və güclü dövlət olaraq qəbul edilməsinin təcəssümüdür.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan D.Tramp ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi ABŞ-ın münaqişənin sülh yolu ilə dayanıqlı həlli üzrə aparılan danışıqlara dəstəyini davam etdirəcəyini bəyan edib. Bu məqam münaqişənin həlli üzrə Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqlı mövqeyinə dəstək verməklə yanaşı, destruktiv hərəkətləri ilə danışıqlar prosesinə xələl gətirən təcavüzkar Ermənistanın hazırkı rəhbərliyinin ünvanına ciddi mesajları özündə ehtiva edir. Belə ki, danışıqlara dəstək ifadə etməklə Minsk qrupunun həmsədr ölkəsi olan ABŞ Ermənistanın danışıqlar formatının dəyişdirilməsi cəhdlərini rədd edir. Habelə, münaqişəsinin sülh yolu ilə həllinin vacibliyinə diqqət çəkilir ki, bu da torpaqlarımızın işğalının qəbuledilməzliyi və Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılması ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsinin ifadəsidir.

Donald Trampın İlham Əliyevə təbrik məktubu bir daha Azərbaycan və ABŞ arasındakı yaxın tərəfdaşlıq münasibətlərinin bariz nümunəsi oldu. Ən əsası Donald Tramp Birləşmiş Ştatların Azərbaycan xalqının yanında olduğunu növbəti dəfə bəyan etdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakıda keçirilən ASAN Qlobal Veb Forum başa çatıb

"Hökumətlər tərəfindən COVID-19-a qarşı görülən çevik tədbirlər" mövzusunda ASAN Qlobal Veb Forumunun yekun sessiyası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, natiqlər BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin (UN DESA) dövlət xidmətləri innovasiyası bölməsinin rəhbəri Con-Mari Kauzya və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparat rəhbəri Azad Cəfərli olublar.

Azad Cəfərli dünyanın 25-dən çox ölkə iştirakçısının qoşulduğu forumun pandemiya şəraitində dövlət idarəçiliyi və xidmətlərinin göstərilməsi, sosial innovasiyalar, logistika və s. sahələrdə cari vəziyyətin, perspektivlərin müzakirəsi, təcrübə mübadiləsi ilə əlaqədar beynəlxalq əməkdaşlığa töhfəsini qeyd edib. Diqqətə çatdırılıb ki, yeni innovasiya və informasiya əsrində reallıqların dərk olunması üçün yeni platforma olan bu forumda əldə olunmuş nəticələr və atılacaq addımlar pandemiyadan sonrakı dövrdə də daha təhlükəsiz dünya quruculuğu üçün əhəmiyyətli rol oynayacaq.

Həmçinin yekun sessiyasında tədbir iştirakçılarına ünvanlanmış şifahi müraciətdə forumun gedişatı, müzakirələr, yekunlar və gələcək əməkdaşlığa olan yanaşmalar, istəklər nəzərə alınaraq mövcud formatın davamlı həyata keçirilməsi və daha geniş rakursdan yenidən mövzuları əhatə etməsi üzrə razılıq ifadə edilib. ASAN Qlobal Veb Forumun mütəmadi olaraq hər il keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə mayın 14-ü və 15-də "Hökumətlər tərəfindən COVID-19-a qarşı görülən çevik tədbirlər" mövzusunda ASAN Qlobal Veb Forumu keçirilib.

Forumun məqsədi pandemiya dövründə dövlət xidmətlərinin göstərilməsi sahəsində effektivliyi, əlçatanlığı, eyni zamanda, pandemiya ilə mübarizə kontekstində və ondan sonrakı dövrdə sosial innovasiyaların, smart həllərin əvəzedilməz rolunu müzakirə etmək olub. Habelə innovativ yanaşmalar və mexanizmlər istiqamətində təcrübə mübadiləsi əsas prioritetlər idi.

Qlobal Veb Forumda Azərbaycan Respublikasının, o cümlədən müxtəlif dövlətlərin, beynəlxalq təşkilatların və şirkətlərin rəhbər şəxsləri, nazirlər, tanınmış ekspertlər iştirak ediblər. İkigünlük forum açılış, yekun sessiyalarından və 4 fərqli mövzulu paneldən ibarət olub.

# Pandemiya dövründə iqtisadi tərəqqi

*Əvvəli 1-ci səh.*

Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal və regional enerji, nəqliyyat-kommunikasiya layihələrinin fəal iştirakçısı, tərəfdaş ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini daim inkişaf etdirən Azərbaycan qlobal pandemiya dövründə də iqtisadiyyatının dayanıqlığını təmin edir.

Mayın 12-də Prezident İlham Əliyev Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında ölkə iqtisadiyyatının mövcud durumuna toxunaraq qeyd etdi ki, bir çox ölkələrdə iqtisadiyyat tənəzzülə uğrasa da, Azərbaycanda dörd ayın yekunlarına əsasən, iqtisadiyyat az da olsa - 0,2 faiz artıb. O ki qaldı qeyri-neft sektorunun inkişafına, bu sektorun sənaye artımı 16 faizdən çoxdur. Bu da, əlbəttə ki, görülmüş işlərin nəticəsidir.

Cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib.

Bu gün Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların keçirdikləri reytinqlərdə nəinki MDB dövlətlərini, hətta dünyanın bir çox inkişaf etmiş ölkələrini geridə qoyur.

Artıq neçə ildir ki, ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən biri olan qeyri-neft sektorunun inkişafı qarşıya prioritet vəzifə kimi qoyulub. Son illər müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi sayəsində bu sektor xeyli tərəqqi edib. Bu isə o deməkdir ki, dünyada baş verən mənfi iqtisadi meyillərə baxmayaraq, ölkəmizin iqtisadiyyatı öz inkişafından qalmır. Hətta bu ilin birinci rübündə qeyri-neft və qaz sektorunda sənaye məhsulları istehsalının həcmi 23 faiz artıb.

Prezident İlham Əliyev ötən həftə Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində də bunu mütləq rekord göstərici adlandırmışdı. Əlbəttə ki, pandemiya şəraitində hər dövlətin belə uğur qazanması qeyri-mümkündür.

Bir sözlə, Azərbaycan cənab İlham Əliyevin yeni iqtisadi strategiyası əsasında inkişaf dinamikasını davam etdirir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dövlət Statistika Komitəsi xəbər verir



### Cari ilin yanvar-aprel aylarında ÜDM istehsalı 0,2 faiz artıb

**2020-ci ilin yanvar-aprel aylarında ölkədə istehsal olunmuş ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz artaraq 22 milyard 400,5 milyon manat təşkil etmişdir.**

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,5 faiz artmış, qeyri neft-qaz sektorunda isə 0,8 faiz azalmışdır.

ÜDM istehsalının 39,3 faizi sənaye, 10,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,6 faizi tikinti, 3,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2 faizi informasiya və rabitə, 1,9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 18,9 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,3 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 2249,7 manata bərabər olmuşdur.

### Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 16,8 faiz artmışdır

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2020-ci ilin yanvar-aprel aylarında ölkə üzrə 13 milyard manatlıq və ya 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çox sənaye məhsulları istehsal edilmişdir.

Bu dövrdə sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 16,8 faiz artmışdır.

Sənaye məhsullarının 63,1 faizi mədənçıxarma, 30,5 faizi emal, 5,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 0,2 faiz azalmış, əmtəəlik qaz hasilatı 17,1 faiz artmışdır.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 4,7, kompüter, elektron və optik məhsulların istehsalı 2,6, metallurgiya sənayesi məhsullarının istehsalı 2,3 dəfə, əczaçılıq məhsullarının istehsalı 60,7, ağacın emalı və ağacdan məmulatların istehsalı 48,6, sair nəqliyyat vasitələrinin istehsalı 35,1, kimya sənayesi məhsullarının istehsalı 24,9, elektrik avadanlıqlarının istehsalı 20,6, rezin və plastik kütlə məmulatlarının istehsalı 20, kağız və karton istehsalı 19,3, tütün məmulatlarının istehsalı 18,9, içkilərin istehsalı 8,3, qida məhsullarının istehsalı 8,1, neft məhsullarının istehsalı 5,1, hazır metal məmulatlarının istehsalı 4,4, geyim istehsalı 3,6, toxuculuq sənayesi məhsullarının istehsalı 1,2 faiz artmış, mebel istehsalı 0,9, poliqrafiya məhsullarının istehsalı 2,3, tikinti materiallarının istehsalı 4,5, maşın və avadanlıqların istehsalı 23,8, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 36,3, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 54,1 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 14, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 2,5 faiz artmışdır.

### Dörd ayda əsas kapitala 3,9 milyard manatdan çox vəsait yönəldilmişdir

Cari ilin yanvar-aprel aylarında əsas kapitala 3 milyard 903,5 milyon manat məbləğində, yaxud 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz az vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 18,8 faiz artmış, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 12,8 faiz azalmışdır.

İstifadə edilmiş vəsaitin 2 milyard 622,3 milyon manatı və ya 67,2 faizi məhsul istehsalı, 875,2 milyon manatı (22,4 faizi) xidmət sahələrinə, 406 milyon manatı (10,4 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 2 milyard 338,3 milyon manatını və ya 59,9 faizini daxili vəsaitlər təşkil etmişdir və həmin vəsaitlərin 2 milyard 383,2 milyon manatı (61,1 faizi) bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə xərclənmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 62, büdcə vəsaitləri 21, əhalinin şəxsi vəsaitləri 6,6, bank kreditləri 5,7, büdcədənkənar dövlət fondlarının vəsaitləri 2,5, sair vəsaitlər isə 2,2 faiz təşkil etmişdir.

İlin əvvəlindən ötən dörd ay ərzində Bakıda "Yeni klinika" tibb müəssisəsi, Naxçıvan Muxtar Respublikasında ambulatoriya-poliklinika müəssisəsi, Sumqayıt şəhərində Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsi, Gəncə və Şəki şəhərlərinin hər birində 200 çarpayılıq xəstəxana binası, Ağstafa, Goranboy, Kürdəmir, Qazax və Tovuz rayonlarında "Azərxalça" ASC-nin filialı, Kürdəmir və Tovuz rayonlarında "Asan Həyat" kompleksi, Ağstafa rayonunda Aqrar Sənaye Kompleksi, Qazax rayonunda əhəng zavodu, Şəmkir rayonunda "Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksi, Tovuz rayonunda Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi, Dövlət Rəmzləri Muzeyi və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

### İstehlak bazarındakı qiymətlər çox dəyişməyib

Dövlət Statsitika Komitəsi ilin əvvəlindən ötən dörd ay ərzində istehlak bazarındakı qiymətlər barədə də göstəriciləri açıqlayıb.

Bildirilir ki, 2020-ci ilin yanvar-aprel aylarında istehlak qiymətləri indeksi 2019-cu ilin yanvar-aprel aylarına nisbətən 103, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 105,4, qeyri-ərzaq məhsulları üzrə 101,2, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 101,1 faiz təşkil etmişdir.

Aprel ayında isə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1, əvvəlki ilin aprel ayına nisbətən 103 olmuşdur.

Ötən ay ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,7, əvvəlki ilin aprel ayına nisbətən 106,0 faiz təşkil etmişdir.

## Bu il əhali qrupu üzrə 100 min yeni abonent qazdan istifadə edəcək

**Prezident İlham ƏLİYEV :**
"Ölkəmizin, demək olar ki, bütün yerlərində qazlaşdırma təmin edilib... Bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir".



**Azərbaycanda həyata keçirilən çoxsaylı infrastruktur layihələri sırasında qazlaşdırmaya aid olanların da mühüm əhəmiyyəti var. Onların gerçəkləşməsi nəticəsində şəhərlərin, rayon mərkəzlərinin, iri kənd və qəsəbələrin mavi yanacaq problemi tam həll olunmaqla yanaşı, ən ucqar dağlıq ərazilərdəki yaşayış məntəqələri də qazla təmin edilib.**

Regionların sosial-iqtisadi inkişafına yönəldilən Dövlət Proqramlarına uyğun olaraq son illərdə uzun müddət təbii qaz almayan yaşayış məntəqələrinin, həmçinin indiyədək qazlaşdırılmayan kənd və qəsəbələrin mavi yanacaqla təmin edilməsi istiqamətində genişmiqyaslı və davamlı işlər aparılıb. Hətta sovet dönəmində qazdan istifadə etmək imkanı olmayan bir sıra yaşayış məntəqələrindəki evlərdə indi mavi alov şölələnir.

Keçən il regionlarda 61 yaşayış məntəqəsinin və 31 yeni massivin qazlaşdırılması nəzərdə tutulmuşdu. Dekabrın 28-də proqramın icrası tam yerinə yetirildi və il ərzində qazlaşdırılması planlaşdırılan yaşayış məntəqələrinin sonuncusuna - Goranboy rayonunun Goran qəsəbəsinə mavi yanacağın verilməsi təmin edildi.

Bakı şəhəri üzrə isə ötən il birinci mərhələdə 22 yeni yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulmuşdu. Paytaxtda onlarca çoxmərtəbəli binadakı mənzillərə, kənd və qəsəbələrdə yüzlərlə fərdi yaşayış evinə qaz verildi.

Artıq ölkə üzrə əhali sektorunun qazlaşdırma səviyyəsinin 96 faizi ötməsi ardıcıl tədbirlərin nəticəsində mümkün olub. Xatırladaq ki, Azərbaycanda qazlaşdırmanın səviyyəsi 2010-cu il yanvarın 1-də 62,2 faiz təşkil edirdi. Həmin vaxtdan indiyədək bu göstərici 33,8 faiz artıb.

Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev demişdir: "Qazlaşdırma prosesi də davam etdirilib. Bu gün ölkəmizin, demək olar ki, bütün yerlərində qazlaşdırma təmin edilibdir. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Bu da dünya miqyasında ən yüksək göstəricilərdən biridir".

Sözügedən tədbirdə dövlət başçısı həmçinin bildirmişdir ki, qazlaşdırmanın 96 faizə çatmasına baxmayaraq, yenə də dövlət investisiya proqramında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə dövlət büdcəsindən 130 milyon manat vəsait nəzərdə tutulur. Bu vəsaitdən istifadə edərək bir çox kəndlər - bu gün hələ mavi yanacaq almayan kəndlər qazlaşdırılacaq. Beləliklə, ölkədə qazlaşdırma işləri davam etdirilir.

Prezident İlham Əliyevin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 19 fevral 2019-cu il tarixli fərmanının icrası ilə əlaqədar Bakı şəhərində bir çox binanın istismara qəbulu prosesi bu il də diqqətdə saxlanılır. Fərmandan irəli gələn məsələlərin operativ həlli məqsədilə görülən tədbirlər davam etdirilir. Belə ki, bu il yanvar ayının 7-dən fevral ayının 29-dək 112 yaşayış binası üzrə 5097 mənzil təbii qazla təmin olunub.

Fevralın sonunda Xəzər rayonu Binə qəsəbəsinin "Atçılıq" adlandırılan ərazisində badam bağlarının ətrafında yerləşən yeni massivin qazlaşdırılması işləri başa çatdırılıb.

Bundan əlavə, qeyri-əhali sektoru üzrə 619 məscid və dini məbədin hər birinə təbii qazdan əvəzsiz istifadə üçün illik 5 000 kubmetr qaz limiti ayrılıb.

Qaz infrastrukturunun təzələnməsi və təkmilləşdirilməsi də diqqət mərkəzindədir. Bu il yüzlərlə qaz sayğacı yeniləri ilə əvəz ediləcək. 785 kilometr yeni qaz xətti əsaslı təmir olunacaq. 800 yeni qaz tənzimləyicisi, 800 siyirtmə quraşdırılacaq.

Qazlaşdırılan kənd və yaşayış massivlərinin sayı isə aydan-aya artır. Cari ilin mart ayında dövlət başçısı bununla bağlı bir sıra sərəncamlar imzalayıb. Prezidentin 2 mart 2020-ci il tarixdə imzaladığı sərəncama əsasən, 4 şəhər və rayon üzrə 6 yaşayış məntəqəsində 1700-dən çox fərdi yaşayış evi təbii qazla təmin olunacaq. Sərəncamla SOCAR-a 9 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Gəncə şəhəri Şıxzamanlı və Cavadxan qəsəbələrinin yeni yaşayış massivlərində 980-ə yaxın, Daşkəsən rayonunun Aşağı Daşkəsən və Kəmərqaya kəndlərində 200-dən artıq fərdi ev, eyni zamanda Göygöl rayonunun Toğanalı kəndində 390-a və Samux rayonunun Şərkar kəndi ərazisindəki yeni massivdə 150-ə yaxın fərdi ev qazlaşdırılacaq.

Növbəti bir sərəncama əsasən, Ağstafanın Dağ Kəsəmən kəndində yeni massiv, Gədəbəyin Arıqıran, Gərgər, Qasımlı kəndləri, Şəmkirdə 2 yeni massiv və Aşağı Çaykənd kəndi, Tovuzun Cirdək və Çatax kəndləri qazlaşdırılacaq. Bu işlərə 8 milyon 190 min manat xərclənəcək.

Prezident İlham Əliyev Abşeron, Xızı, Siyəzən və Şabran rayonlarında yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında da sərəncam imzalayıb. Sərəncama əsasən, bu rayonların ərazi vahidlərinin, o cümlədən yeni yaşayış massivlərinin qazlaşdırılması işlərinin davam etdirilməsi məqsədilə 10 milyon 920 min manat ayrılacaq.

Qazlaşdırılacaq yeni yaşayış massivlərinin biri Abşeron rayonunun Qobu qəsəbəsində, digəri Xızı rayonunun Qızılqazma kəndindədir. Bu vəsaitlə eləcə də Siyəzən rayonunun Qalaaltı və Məşrif kəndləri, Şabran rayonunun Ceyranlı, Əmirxanlı, Qazbabalı, Vələsli kəndləri qazlaşdırılacaq.

Prezidentin daha bir sərəncamı ilə Ağdaş rayonunun 11 və Göyçay rayonunun bir kəndi də qaz alacaq. Ağdaşda qazlaşdırlacaq kəndlər Ağcaqovaq, Aşağı Qobuüstü, Eymur, Ərəbşəki, Hacılar, Qobuüstü, Malay, Mürsəl, Şıxlı, Yenikənd və Yuxarı Nemətabaddır. Göyçayda isə Yenikənd kəndinə qaz çəkiləcək. Beləliklə, cari lin sonunadək qazdan istifadə edən yeni abonentlərin sayının təqribən 100 minə bərabər olacağı proqnozlaşdırılır.

Keçən ay əhali sektoru üzrə 6 474 yeni abonent qeydiyyata alınıb. Bundan 4 842 abonent Bakı, Abşeron və Sumqayıt, 1 632 abonent regionların payına düşür. 4 ay ərzində qeydə alınan yeni abonentlərin sayı isə 30 055 təşkil edir. Beləliklə, may ayının 1-nə olan statistikaya görə, Azərbaycanda ümumilikdə qazdan istifadə edən əhali qrupu abonent sayı 2 milyon 277 min 298-ə bərabərdir. Onların da 1 milyon 398 min 805-i regionlarda, 878 493-ü Bakı şəhərindədir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## «Azərbaycanın öhdəliklərinin tam şəkildə icrası üçün bütün imkanlar səfərbər edilib»

Azərbaycan "Əməkdaşlıq Bəyannaməsi" iştirakçılarının qlobal neft bazarında sabitliyin və balansın bərpasının sürətləndirilməsi ilə bağlı səylərini təqdir edir və bu prosesə öz zəruri dəstəyini verir.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, aprel ayında əldə edilmiş tarixi razılaşmanın yerinə yetirilməsində OPEC və qeyri-OPEC ölkələrindən yüksək həssaslıq və qəti addımlar tələb edir: "May ayında neft bazarında müşahidə olunan müsbət meyillərdə şübhəsiz ki, "OPEC+" ölkələrinin hasilatı azaltması ilə bağlı tədbirlərinin rolu vardır. "OPEC+" üzvlərinin öhdəliklərinə sadiqlik, Səudiyyə Ərəbistanı, BƏƏ və Kuveytin isə hasilatlarını əlavə həcmlərdə azaltmaqla bağlı mövqeləri neft bazarının tənzimlənməsi üçün həlledici əhəmiyyətə malikdir."

Dünya neft bazarının sabitləşdirilməsi məqsədilə ilk dəfə olaraq böyük həcmlərdə öhdəliklər götürmüş Azərbaycan kvotasına uyğun olaraq mayın 1-dən gündəlik neft hasilatını azaldır.

"Azərbaycan xarici və yerli neft istehsalçılarının bu prosesdə bərabər şərtlər çərçivəsində iştirakına nail olaraq neft sektorunun bütün imkanlarını öhdəliklərinin icrasına yönəldib. May ayının birinci ongünlüyündə Azərbaycanın öhdəliyinin icra səviyyəsi 98 faizdir. May-iyun aylarında gündəlik hasilatın 164 min barel azaldılması üçün bütün zəruri tədbirləri görməklə neft bazarına töhfə vermək əsas hədəflərimizdəndir" - deyə nazir bildirib.

2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barel olan Azərbaycan yeni razılaşma çərçivəsində hasilatı may-iyun aylarında həmin səviyyədən 164 min barel azaltmalıdır. Bu müddət ərzində Azərbaycan gündəlik xam neft hasilatını 554 min barel həcmində saxlamalıdır.

Azərbaycanın öhdəlikləri iyul - dekabr aylarında 131 min barel, 2021-ci il və 2022-ci ilin aprel ayı ərzində isə 98 min barel müəyyənləşib. Kvotalara müvafiq olaraq ölkəmizdə gündəlik xam neft hasilatının həcmi iyulun 1-dən ilin sonunadək 587 min bareli, 2021-ci ilin yanvar-2022-ci ilin aprelində isə 620 min bareli keçməməlidir.

## Tərtərdə 10 cəbhəyanı kəndi birləşdirən yol yenidən qurulur



**Cəbhəyanı kəndlərin sosial problemlərinin həlli istiqamətində dövlət başçısının tapşırıq və sərəncamları ilə müxtəlif infrastruktur layihələri həyata keçirilir. Bu baxımdan avtomobil yolarının yenidən qurulması da dövlət siyasətinin əsas prioriteti hesab olunur.**

Məhz bunun nəticəsidir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən təmas xəttində yerləşən yaşayış məntəqələrinə gedən yollar əsaslı şəkildə yenidən qurulur.

Tərtər rayonunda cari ildə 10 cəbhəyanı kəndi birləşdirən yolun əsaslı şəkildə bərpası istiqamətdə dövlət başçısının tapşırıq və sərəncamına əsasən, yenidən qurulması yüksək keyfiyyətlə və sürətlə davam etdirilir. Bu, IV texniki dərəcəyə uyğun yenidən qurulan və uzunluğu 33,5 km olan yerli əhəmiyyətli Səhləbad-Əskipara-Qaraağacı-Yuxarı Qaradağlı-Qapanlı-Qaynaq-Yuxarı Qapanlı-Qazyan-Təzəkənd-Hüsənli avtomobil yoludur.

Yolun torpaq və çınqıl örtüklü olması sözügedən yaşayış məntəqələri arasında nəqliyyat əlaqəsini xeyli çətinləşdirirdi, əhalinin rahat gediş-gəlişinə maneə yaradırdı. O üzdən sözügedən yol ölkə rəhbərliyinin tapşırığı ilə respublikada bu il təmir və tikintisinə ehtiyac olan yolların siyahısına daxil edildi. Yerli əhəmiyyətli avtomobil yolu bir müddətdir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən texnoloji ardıcıllığa uyğun olaraq 2 hərəkət zolağı enində yenidən qurulur.

Layihəyə uyğun olaraq yolun torpaq yatağının bərpası üçün yararsız qrunt müxtəlif dərinliklərdə qazılaraq çıxarılıb, əvəzinə çınqıl qruntu tökülərək kipləşdirilib. Yolun relyefdən aşağı olan hissələrində torpaq yatağının qaldırılması üçün yararlı qrunt tökülərək yayılıb, genişləndirilməsi işləri aparılıb. Bundan başqa, torpaq yatağı hazır olan hissələrdə yeni yol əsası inşa edilib. Yol əsasının alt layının tikintisi optimal qırmadaş, üst layının tikintisi isə qum-çınqıl qarışığı ilə aparılıb.

Avtomobil yolunun altından suların ötürülməsini təmin etmək məqsədi ilə mövcud boruların yeniləri ilə əvəz olunması, zəruri yerlərdə yenilərinin inşa edilməsi layihədə nəzərdə tutulan işlərdəndir. Bu məqsədlə 2 yerdə düzbucaqlı su keçidlərinin, müxtəlif diametrli dəmir-beton su ötürücü boruların tikintisi işləri də aparılıb.

Bu işlərin ardınca yolun asfaltlanması işlərinə başlanılıb. Bunun üçün təqribən 200 min kv.m sahəyə 2 laydan ibarət yeni asfalt-beton örtüyü döşənir, yolun çiyin hissələri optimal-çınqıl materialı ilə bərkidilir.

Yüksək keyfiyyətlə icra olunan layihənin sonuncu mərhələsində yol boyu zəruri yerlərdə avtobus dayanacaqları, yol nişanı, km göstəricisi və siqnal dirəkləri quraşdırılacaq, hərəkətin normal təşkili üçün üfüqi nişanlama xətləri çəkiləcək.

Son dövrlərdə cəbhəyanı yaşayış məntəqələrini birləşdirən yolların inşası, müasir tələblər səviyyəsində yenidən qurulması ümumilikdə ölkəmizin iqtisadi potensialını artırır. Belə ki, bu cür yolların yenidən qurulması vətəndaşlarımızın birbaşa sosial rifah halına müsbət təsir göstərməklə avtomobillərin hərəkətinin təhlükəsizliyinə zəmin yaradır, yük və sərnişin daşımasını asanlaşdırır, kənd təsərrüfatının inkişafına təkan verir.

## Taxıl biçininə hazırlıq yekunlaşır

May ayının sonundan etibarən Azərbaycanda taxıl biçininə start veriləcək. Bununla əlaqədar "Aqrolizinq" ASC tərəfindən biçinə hazırlıq işləri yekunlaşmaq üzrədir.

Hazırda mövcud kombaynlara texniki baxış keçirilir, GPS cihazlarında sazlanma işləri aparılır, həmçinin nasaz vəziyyətdə olan texnikalar təmir edilir.

Bu il ölkədə biçinə ümumilikdə 1700-dən çox taxılbiçən kombaynın cəlb olunması gözlənilir. Bunun 700-dən çoxu "Aqrolizinq" ASC-yə məxsus, 990 ədədi isə fiziki şəxslərin və iri təsərrüfat sahiblərinin istifadəsində olan texnikalardır. Ötən il olduğu kimi, bu il də "Aqrolizinq" ASC tərəfindən ilk növbədə 50 hektara qədər olan taxıl sahələrində biçin aparılacaq. Biçin qiymətləri də ötən ildə olduğu kimi qalır. 1 hektar taxıl sahəsi üçün biçin qiymətinin yuxarı həddi 38 manatdır.

Biçinə hazırlıq prosesinin əsas istiqamətləri biçin prosesində rayonlar üzrə texnikaya tələbatın müəyyən edilməsi, texnikanın düzgün dislokasiyası, biçin zamanı kənd və qəsəbələrdə növbəliliyin təşkil olunmasıdır. Bu məqsədlə "Aqrolizinq" ASC-nin əməkdaşları tərəfindən karantin rejiminin qaydalarına əməl edilməklə kənd və qəsəbələrdə vətəndaşlarla maarifləndirmə işləri aparılır. Fermerlərə biçin haqqında ətraflı məlumatlar verilir, biçin prosesi, biçinə nəzarət, vətəndaşların növbəli biçin prosesinə əməl etməsinin vacibliyi haqqında tövsiyələr, çağırışlar edilir.

Bu il biçin zamanı növbəliliyə riayət edilməsi və növbə pozuntusunun aradan qaldırılması prosesinə icra nümayəndəlikləri və bələdiyyələr də cəlb ediləcək. Biçinə nəzarət Kənd Təsərrüfatı Nazirliyində yaradılmış Mərkəzi Qərargah, yerlərdə isə Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən GPS trekerlər vasitəsilə həyata keçiriləcək.

Hazırda fermerlərə biçində növbəliliyin təmin edilməsinin vacibliyini əks etdirən bukletlər paylanır, kənd və qəsəbələrin mərkəzi yerlərində məlumatlatlandırıcı elanlar vurulur. Bu istiqamətdə ilk maarifləndirici görüşlər düşmənlə təmas xəttində yerləşən Füzuli rayonunun Qazaxlar kəndində, Ağcabədi, Beyləqan, Sabirabad, Hacıqabul, Ağdaş, Yevlax, Bərdə, Tərtər rayonlarında keçirilib. Görüşlər taxıl əkilmiş bütün rayonları əhatə edəcək.

# Biz birlikdə güclüyük!

## Operativ Qərargah: Xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qisminin yumşaldılmasına qərar verilib

**Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı sanitar-epidemioloji vəziyyət, ölkə əhalisi arasında virusa yoluxanların ümumi sayı və xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qisminin yumşaldılmasına qərar verilib.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Məlumatda bildirilir ki, mövcud sanitar-epidemioloji vəziyyət, aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, 18 may 2020-ci il saat 00:00-dan etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə:

● yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;

● bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət 10 nəfərdən artıq qruplarda cəmləşməmək şərti ilə götürülür;

● restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa olunur *(ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);*

Qeyd edək ki, restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında xidmətlər pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Bu qaydalara riayət edilməsi ictimai iaşə obyektlərinin rəhbər şəxsləri və əməkdaşlarının, eyni zamanda, xidmətlərdən istifadə edən müştərilərin birbaşa öhdəliyidir. Qaydaların pozulması qanunvericiliklə nəzərdə tutulmuş inzibati və cinayət məsuliyyəti yaradır.

**Eyni zamanda, 18 may 2020-ci il saat 00:00-dan bütün ölkə üzrə:**

● muzey və sərgi zallarının fəaliyyəti bərpa olunur;

● 65 yaşdan yuxarı insanların evdən çıxmasına tətbiq olunan qadağa götürülür. Bununla belə, 65 yaşdan yuxarı şəxslər COVID-19 virusuna yoluxmada risk qrupuna daxil olduğundan evdən zəruri hallarda çıxmaq tövsiyə edilir. Eyni zamanda, insanların sıx toplaşdığı məkanlarda olmamaq, sosial məsafənin gözlənilməsi, qoruyucu vasitələrdən istifadə zəruridir.

**Hazırda xüsusi karantin rejimi müddətində ölkə üzrə aşağıdakı məhdudiyyətlər qüvvədə qalır:**

● yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxışın dayandırılması;

● xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Bakı şəhəri, Sumqayıt şəhəri və Abşeron rayonuna, eləcə də Gəncə və Lənkəran şəhərlərinə giriş-çıxış və ölkənin digər şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımalarının dayandırılması;

● bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması;

● Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda dövlət qurumlarında işçilərin say həddinin məhdudlaşdırılması;

● "ASAN xidmət" və "DOST" xidmət mərkəzləri istisna olmaqla, digər dövlət orqanlarında vətəndaşların yerində qrup və fərdi qaydada qəbulunun dayandırılması;

● dəfn mərasimləri istisna olmaqla dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsinin qadağan olunması;

● toy məclislərinin təşkilinin qadağan olunması;

● bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirlərin keçirilməsinin dayandırılması;

● tədbirlərin təşkili üzrə xidmətlərin, o cümlədən bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkilinin qadağan olunması;

● ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsinin qadağan olunması;

● əyləncə məkanları, o cümlədən uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisindəki daxil olmaqla) fəaliyyətinin dayandırılması;

● muzey və sərgi zalları istisna olmaqla, digər mədəniyyət obyektləri, eləcə də kinoteatrların, teatrların, idman zallarının fəaliyyətinin dayandırılması;

● nəzdindəki ərzaq mağazaları və apteklər istisna olmaqla, ölkə ərazisində iri ticarət mərkəzlərinin və "Mall"arın fəaliyyətinin dayandırılması;

● ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadənin qadağan olunması;

● Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə saat 18:00-dan 08:00-dək yerində xidmətin dayandırılması;

● tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarətinin qadağan edilməsi;

● idman, sağlamlıq-bərpa üzrə xidmətlərin dayandırılması (bu sahədə tibbi xidmətlər istisna olmaqla);

● masaj və hamam xidmətlərinin göstərilməsi.

Fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara, metodiki göstərişlərə uyğun həyata keçirilməlidir.

Bir daha vurğulayırıq ki, COVID-19 virusu ilə mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməlidir. Bu baxımdan, COVID-19 ilə bağlı hazırkı vəziyyətdə hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, evdən yalnız ciddi ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq qoruyucu vasitələrdən istifadə və sosial məsafənin gözlənilməsi mütləqdir.

## Azərbaycan qlobal problemlərin həlli platformasına çevrilib

### Prezident İlham Əliyevin təşəbbüsü ilə dünya birliklərinin mütləq əksəriyyəti COVID-19-la mübarizədə səylərini birləşdirib

*Əvvəli 1-ci səh.*




### Real vəziyyətə əsaslanan çevik tədbirlər

Azərbaycanda isə sadalanan təkliflər hələ COVID-19 infeksiyasının yayıldığı ilk zamandan etibarən tətbiq olunmağa başlanmış, real vəziyyətə əsaslanan tədbirlər görülmüş, virusun yayılmasının qarşısının alınması istiqamətində vacib addımlar atılmışdı.

Fevralın sonlarında respublikamızda virusa ilk yoluxma halı qeydə alınandan operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Qonşu ölkələrlə yük avtomobillərinin hərəkəti istisna olmaqla, bütün sərhədlərimiz bağlanıldı, xaricdəki Azərbaycan vətəndaşları vətənə qaytarıldı.

Ölkə ərazisində mart ayının 4-dən etibarən sosial izolyasiya tədbirlərinə start verildi. Sonrakı günlərdə izolyasiya tədbirləri genişləndirildi və ölkədə karantin rejimi tətbiq olundu. Mart ayının əvvəllərindən bütün məktəblərdə tədris dayandırılıb, uşaq bağçaları bağlanılıb.

Xüsusi karantin rejimi zamanında da dövlət hər bir vətəndaşının yanında oldu, problemlərinin, çətinliklərinin həllinə dəstək göstərdi, maddi dayaq durdu. İqtisadi sabitliyi, məşğulluqla bağlı problemləri həll etmək üçün sosial-iqtisadi dəstək paketi qəbul olundu.

Eyni zamanda 20-dən çox müasir laboratoriyada yoluxmanın erkən aşkarlanması üçün xeyli sayda testlərin edilməsi, koronavirusa yoluxmuş bütün xəstələrin xəstəxana şəraitində yüksək səviyyədə müalicə edilməsi və bu istiqamətdə görülən kompleks tədbirlər sağalanların sayını çoxaltdı. Azərbaycanda virusa yoluxmada ağır fəsadlar yaranmadı, COVID-19-a qarşı çevik mübarizə sayəsində qısa zaman kəsimində müsbət nəticələr əldə edildi.

Artıq aprelin 27-dən etibarən tətbiq edilən karantin rejimi mərhələli şəkildə yumşaldılıb və bu proses müsbət dinamika üzrə inkişaf edir.

### Pandemiyaya qarşı qlobal mübarizə

Vətənimiz paralel olaraq beynəlxalq səviyyədə də koronavirusla mübarizəyə dəstək verən ilk ölkələrdən oldu. Dövlətimiz qlobal böhranın aradan qaldırılması istiqamətində ehtiyacı olan ondan çox ölkəyə maddi-texniki yardım edib, kömək əlini uzatdı, pandemiya ilə mübarizəyə qarşı dünya birliklərinin səylərinin birləşdirilməsinin təşəbbüskarı oldu.

Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışındakı nitqində Prezident İlham Əliyev vurğuladı ki, həm ölkə daxilində lazımi tədbirləri görürük, həm də beynəlxalq müstəvidə öz sözümüzü deyirik: "Mən deyə bilərəm ki, biz 10-dan çox ölkəyə yardım etmişik. Texniki yardım, maliyyə yardımı, təyyarələr göndərmişik, yük təyyarələri o ölkələrə ki, onlar bizə müraciət edib və onların maddi imkanları məhduddur, onların, belə deyək, müraciət edəcəyi başqa bir ölkə yoxdur. Ondan çox ölkəyə yardım etmişik və hesab edirəm ki, düz etmişik. Çünki məhz belə günlərdə, belə dövrdə insanların da, ölkələrin də əsl siması üzə çıxır. Yaxşı vəziyyətdə hər kəs hər kəslə dostdur. Hər kəs yaxşı sözlər deyir, beynəlxalq tədbirlərdə çıxışlar edir, qarşılıqlı dəstək haqqında danışır, amma əməldə bunu göstərmək lazımdır, əməldə. Biz o ölkələrdənik ki, əməldə bunu göstəririk. Pandemiyaya qarşı qlobal mübarizədə biz birinci ölkələrdən olduq ki, Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar donor ianəsi verdik. Bu yaxınlarda artıq Qoşulmama Hərəkatının sədri kimi Ümumdünya Səhiyyə Təşkilatına əlavə 5 milyon dollar ianə verdik ki, bizimlə razılaşdırmaqla Hərəkata üzv ölkələrə yardım göstərilsin. Bilirsiniz ki, mənim təşəbbüsümlə iki Zirvə görüşü keçirildi - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Hər iki təsisatda Azərbaycan hazırda sədrdir. Bu təşəbbüs vaxtında və yerində olan təşəbbüsdür. Deməк olar ki, bütün dünya birliyi bunu alqışlayır və Azərbaycanın rolunu qeyd edir".

### Azərbaycan məsuliyyətli ölkə və etibarlı tərəfdaşdır

Prezident onu da qeyd etdi ki, həm özümüzə, xalqımıza, həm də bütün dünyaya bir daha göstərdik ki, biz ləyaqətli ölkəyik: "Biz bunu etməyə də bilərdik. Kimsə bizə bir söz deyəcəkdi? Yox. Kim bizə irad tuta bilərdi ki, bu ağır dövrdə biz bu təşəbbüsü irəli sürməsəydik. Amma biz bunu etdik. Çünki biz məsuliyyətli ölkəyik və etibarlı tərəfdaşıq. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü dünya miqyasında onlayn formatda birinci Zirvə görüşü idi. Qoşulmama Hərəkatının Zirvə görüşü isə 120 ölkəni birləşdirir. Onu da bildirməliyəm ki, bu Zirvə görüşünə təbrik müraciətlərini BMT-nin Baş katibi Quterreş, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Avropa Komissiyasının vitse-prezidenti göndərmişdilər. Onu da bildirməliyəm ki, Qoşulmama Hərəkatı ilə Avropa İttifaqı arasında, mən bilən, bu günə qədər hər hansı bir ciddi təmas olmayıb. Çünki bu iki təsisat fərqli qütblərdə yerləşir və bir çox hallarda onların baxışları üst-üstə düşmür. Ona görə bu da bir ilkdir. Əgər biz ölkələrin sayını götürsək, görərik ki, Qoşulmama Hərəkatında 120 üzv, Avropa İttifaqında 27 üzv, artıq 147 və Afrika İttifaqında 55 üzv fəaliyyət göstərir. Düzdür, onların bəziləri Qoşulmama Hərəkatının üzvüdür. Buna baxmayaraq, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanın təşəbbüsü ilə COVID-19-a qarşı vahid platforma formalaşdırdı. Mən tam səmimiyyətlə deyə bilərəm, özümüzü tərifləmək üçün yox, sadəcə olaraq, həqiqəti dilə gətirmək üçün, Azərbaycan dünyanı birləşdirir. Birincisi, milli zəmində, yəni ölkə ərazisində görülən bütün işlər, tədbirlər nümunəvi xarakter daşıyır. Sosial-iqtisadi paket adambaşına düşən xərclərə görə dünyada bəlkə də birincilər sırasındadır. Beynəlxalq müstəvidə özünü məsuliyyətli üzv kimi aparıb və yenə də ümumi daxili məhsula görə bizim qədər donor ianəsi verən olmayıb. Düzdür, bəzi ölkələr böyük rəqəmlər bəyan ediblər, amma hanı o vəsait, yoxdur. Bizimki isə nağd verilib. Beynəlxalq təşkilatlar çərçivəsində irəli sürülmüş təşəbbüslər də dünya birliyi tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilir və təqdir edilir. Bax, bu çətin dövrdə hər kəsin əsl siması üzə çıxdı. Kim nəyə qadirdir, kim ölkəni necə idarə edir, kim böhrana qarşı necə hərəkət edir, kim xalqı, cəmiyyəti səfərbər edə bilib, kim isə, sadəcə olaraq, xarici yardıma möhtac qalaqala başqasından yardım diləyir. Ona görə həm özümüzə, xalqımıza, həm də bütün dünyaya bir daha göstərdik ki, biz ləyaqətli ölkəyik. Bizim üçün milli maraqlar prioritet məsələdir. İnsanların sağlamlığı isə milli maraqlar arasında prioritet yerdədir".

### Azərbaycan nümunəsi

Qlobal pandemiyaya qarşı dövlətimiz tərəfindən aparılan effektiv mübarizə dünyanın da diqqətindən kənarda qalmayıb və nümunə göstərilir. Bir müddət əvvəl ÜST-ün Baş direktoru Tedros Gebreyesus Prezident İlham Əliyev və digər ölkələrin liderlərinə ünvanladığı səmimi məktubda COVID-19 pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasəti və atılan addımları təqdir edib. Bildirib ki, Azərbaycanda həyata keçirilən siyasət bir sıra ölkələr üçün nümunə ola bilər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə pandemiyaya qarşı aparılan effektiv mübarizə, dünyada təhlükəsizliyin möhkəmlənməsinə verilən töhfələr dünya mətbuatının diqqət mərkəzinə çevrilir, təqdir olunur və alqışlanır.

Ölkə Prezidentinə vətəndaşlarımız tərəfindən saysız təşəkkür məktubları ünvanlanır. Hər bir azərbaycanlının qəlbində İlham Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsi olaraq respublikamızın bu sınaqdan da üzüağ çıxacağına, koronavirusa birdəfəlik son qoyulacağına dair böyük əminlik var.

Bəli, bu bir həqiqətdir ki, dünya xəritəsinə baxanda kiçik nöqtə kimi görünən Azərbaycan humanizm, xeyirxahlıq, dostluq, darda qalana kömək əlini uzatmaq kimi ümumbəşəri dəyərləri sayəsində yer üzünün hər yerindən görünən nəhəng ölkələrdən birinə, zirvəyə çevrilib...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Azərbaycan pandemiyadan tibbi sənayeni inkişaf etdirmək üçün faydalanır

**Böhran nə qədər təhlükəli olsa da, ondan sığortalanmaq, onun fəsadlarından yayınmaq, həmçinin iti ağılla perspektivləri görərək yeni məqsədlərə səmt götürmək mümkündür. Bu baxımdan müasir dünya düzənində Azərbaycan koronavirus pandemiyası ilə mübarizədə fərqli və təqdirəlayiq nümunə sərgiləyir.**



Məlum olduğu kimi, koronavirus pandemiysı dünyanı çənginə alanda bütün ölkələr kəskin surətdə tibbi avadanlıqların çatışmazlığı ilə üzləşdilər. Virusun qarşısının alınması üçün ilkin tədbirlər kimi maskalara yaranan ehtiyac əksər ölkələrdə ciddi gərginliklər yaratdı, bəzi məqamlarda böyük səs-küyə səbəb oldu. Belə ki, zəruri tibbi ləvazimatlarla nəinki xəstələri, hətta tibb işçilərini təmin etmək belə mümkün deyildi. Bu üzdən hətta ən yaxın, müttəfiq dövlətlər arasında gözlənilməz gərginliklər və anlaşılmazlıqlar yarandı. Tibbi avadanlıqların çatışmazlığı ona səbəb oldu ki, bütün ölkələr, ilk növbədə, öz ehtiyaclarını ödəməyə başladılar.

Bu sırada biz yenə də hamıdan fərqləndik. Azərbaycan birinci Çinə, sonra da başqa ölkələrə yardım əlini uzatdı. Prezident İlham Əliyev isə belə mürəkkəb tarixi dönəmdə sarsılmaz islahatçı ruhu ilə daha qətiyyətli addımlar atdı, ölkəmizin tibb sənayesinin inkişafını sürətləndirdi.

Sumqayıtdakı "Gilan Tekstil Park" MMC-də tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirak etməsi iqtisadiyyatımızda yeni tibbi sənayenin fəaliyyətə başlamasından xəbər verən unikal hadisə kimi tarixə düşdü.

"Gilan Tekstil Park" MMC-də istehsal olunan maskalar müxtəlif kateqoriyalı virus və infeksiyalara qarşı davamlıdır. İlkin mərhələdə fabrikdə gün ərzində 140 min, may ayının sonunadək isə 300 minədək maska istehsal ediləcək. Bu, təxminən ayda 9 milyona yaxın maska deməkdir. Bundan başqa, müəssisədə birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanılmışdır.

Müəssisələrin açılışı zamanı Prezident İlham Əliyev koronavirus pandemiyasının Azərbaycanda tibbi sənayenin inkişafını aktual mövzuya çevirdiyini diqqətə çatdırdı: "Hesab edirəm, bu müddət ərzində hər bir ölkə gördü ki, çətin vəziyyətdə, çətin şəraitdə bəzi ölkələr özlərinə qapanır, bəzi ölkələr ancaq öz daxili bazarlarını təmin etmək üçün çalışır. Əlbəttə, müəyyən çətinliklər də yarandı, xüsusilə tibbi ləvazimatların, tibbi avadanlıqların alınması və ölkəmizə gətirilməsi üçün. Bir daha gördük ki, tibbi sənayenin inkişafı böyük əhəmiyyət daşıyır. Son müddət ərzində bu istiqamətdə müəyyən addımlar atılmışdır, Pirallahı adasında iki müəssisə fəaliyyətə başlamışdır, biri dərman preparatları müəssisəsi, digəri isə tibbi şprislərin istehsalı".

Danılmaz faktdır ki, iqtisadiyyatın hər hansı yeni sahəsinin yaradılması üçün istək və zərurətdən daha çox müasir sənaye potensialı və güclü iqtisadi baza lazımdır. Dövlət başçısı belə hesab edir ki, ölkədə uzun illər aparılan geniş islahatlar, mükəmməl sənayeləşmə siyasəti və xüsusilə Sumqayıt şəhərində yeni müasir sənaye müəssisələrinin fəaliyyətə başlaması qısa müddət ərzində fabriklərin öz profilini dəyişməsinə imkan yaratdı.

Azərbaycan Prezidenti aparılan düzgün iqtisadi islahatların səmərəsini belə qiymətləndirdi: "Ona görə hesab edirəm ki, bu gün çox əlamətdar gündür. Çünki həm birinci, həm də bu gün burada fəaliyyətə başlayan ikinci tibbi maska istehsalı müəssisəsi bizim daxili tələbatımızı tam ödəməlidir və qoruyucu kombinezonlar da həmçinin. Sənaye potensialının inkişafı, əlbəttə, imkan verdi ki, biz buna nail olaq".

Bütövlükdə bu gün Sumqayıtın inkişafı böyük dərəcədə şəhərin sənaye potensialı ilə bağlıdır, lakin bu inkişaf ekoloji balansı pozmur, insanların həyatı üçün təhlükə yaratmır. Bu baxımdan dövlət başçısı Sumqayıtın ölkə iqtisadiyyatındakı mühüm rolunu belə dəyərləndirdi: "Ona görə bir sənaye şəhəri kimi Sumqayıtın siması tamamilə dəyişib və bu gün ən yüksək standartlara cavab verir. Bununla yanaşı, əlbəttə, digər başqa layihələr də icra edilmişdir. Sosial layihələr - köçkünlər üçün artıq bir neçə ildir ki, böyük şəhərciklər salınır. Mən bu yaxınlarda növbəti şəhərciyin tikintisi ilə tanış olmuşam. Abadlıq işləri aparılır, Sumqayıt bulvarı da nəhayət ki, fəaliyyətə başlayıb. Bu, mənim çoxdankı arzum idi və bilirəm ki, sumqayıtlılar da həmişə bunu arzulayırdılar. Artıq neçə ildir ki, Sumqayıt bulvarı sumqayıtlıların sərəncamına verilib və çox gözəl istirahət zonasıdır. Bir sözlə, biz bu məsələyə kompleks şəkildə yanaşırıq".

Dövlət başçısı çıxışında nailiyyətləri qeyd etməklə yanaşı, pandemiyanın iqtisadiyyatımıza problemlər yaradacağını da etiraf etdi: "O ki qaldı, iqtisadi vəziyyətə, hər kəs üçün aydın idi, iqtisadiyyat zərər çəkəcəkdir, nəinki bizim iqtisadiyyatımıza, bütün dünya iqtisadiyyatına böyük ziyan vurulacaqdır. İndi artıq ilkin hesablamalar üzə çıxır və deyilir ki, inkişaf etmiş ölkələrdə bu il iqtisadiyyat 7-10 faiz düşə bilər və bu da təbiidir. Ancaq bizim əsas vəzifəmiz vətəndaşları qorumaq idi".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Mütərəqqi təcrübə

*Əvvəli 1-ci səh.*

Mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışında Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya yaradılan şərait barədə verilən məlumatda bildirildi ki, modul tipli ilk xəstəxana kompleksinin tikinti və quraşdırma işləri 3 həftə ərzində tamamlanıb. May ayı ərzində modul tipli daha 5 xəstəxana kompleksinin, iyun ayının ortalarınadək isə digər 4 kompleksin istifadəyə verilməsi nəzərdə tutulub.

Xatırladaq ki, Azərbaycanda son 16 ildə 700-dən çox səhiyyə ocağı tikilib və ya əsaslı təmir edilib. Koronavirusa qarşı mübarizədə onlar, eləcə də yeni istifadəyə verilən və tikintisi nəzərdə tutulan xəstəxanalar əhalinin sağlamlığının təmin olunmasında böyük rol oynayacaq.

Azərbaycan Prezidentinin paytaxtda tikilib istifadəyə verilən ilk modul tipli xəstəxananın açılışında qeyd etdiyi kimi, ölkəmizin müxtəlif bölgələrində 10 belə xəstəxananın tikintisi nəzərdə tutulur. Çünki çarpayı sayının artırılması hər bir ölkə üçün koronavirusa qarşı mübarizədə xüsusi rol oynayır: "Biz indi bəzi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Orada çarpayı çatışmazlığı ucbatından xəstələr vaxtında müalicə ala bilmir, koronavirusa yoluxmuş bir çox insan, ümumiyyətlə, xəstəxanalara götürülmür, onlar evlərdə qalırlar. Əlbəttə, evlərdə onları müalicə, onların vəziyyətini monitorinq etmək qeyri-mümkündür".

Koronavirusa qarşı mübarizədə Azərbaycan təcrübəsinin ən mütərəqqi və ən insansevər olduğunu deyən dövlət başçısı onu da xüsusi qeyd etdi ki, bütün xəstələr xəstəxanalarda yerləşdirilib və həkimlər onlara gecə-gündüz xidmət edirlər. Yeni xəstəxanaların tikintisi, əlbəttə, gələcəyə hesablanıb. Çünki hazırda mövcud xəstəxana fondu tələbatı ödəyir. Ona görə ki, 20-dən çox dövlət xəstəxanası, o cümlədən də ən müasir, 575 çarpayılıq "Yeni klinika" koronavirus xəstələrinin sərəncamına verilib: "Bu, gələcəyə hesablanmış düzgün addımdır, çünki heç kim bilmir pandemiya nə qədər davam edəcək, heç kim bilmir bunun gələcək mərhələləri nədən ibarət olacaq. Ona görə biz tam hazır olmalıyıq.

Bizim atdığımız bütün addımlar qabaqlayıcı xarakter daşıyır. Bu xəstəxananın və bundan sonra buna oxşar 9 xəstəxananın istifadəyə verilməsi 1-2 ay ərzində nəzərdə tutulub. Bütün bu addımlar qabaqlayıcı xarakter daşıyırdı və məhz buna görə hesab edirəm ki, koronavirusla mübarizədə biz birinci mərhələdə qalib gələ bilmişik. Ancaq mübarizə davam edir, koronavirus heç bir yerə qeyb olunmayıb, dolaşır və dolaşacaq və bunu hər kəs bilməlidir".

Bu gün testlərin aparılması istiqamətində də böyük uğurlar özünü göstərməkdədir. Adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Testlərin keçirilməsi üçün yeni laboratoriyalar alınıb ki, artıq onların sayı 23-ə çatıb. Üstəlik, yeni laboratoriyaların yaradılması da nəzərdə tutulan məsələlərdəndir. Bütün lazımi tibbi avadanlıq alınır. Həmçinin dövlət başçısının sərəncamı ilə Prezidentin Ehtiyat Fondundan tibbi avadanlıqların, ləvazimatların alınması və işlərin düzgün təşkili üçün 100 milyon manat vəsait ayrılıb.

Bütün bu kompleks tədbirlər - testlərin keçirilməsi, xəstəxanaların, laboratoriyaların fəaliyyəti və həkimlərin peşəkarlığı, işin düzgün təşkili imkan verib ki, ölkəmiz vəziyyətdən az itkilərlə çıxsın. Hər bir insanın ölümü, dövlət başçısının da qeyd etdiyi kimi, onun yaxınları, qohumları üçün böyük faciədir. Hər kəsin həyatı qiymətli, dəyərlidir.

Dövlət başçısı indiyədək həyata keçirilən qabaqlayıcı tədbirlərin müsbət nəticə verməsi ilə yanaşı, pandemiyanın ölkəmizdə ikinci dalğasının başlanmasından sonra virusa yoluxanların sayının xüsusilə də bölgələrdə artmasının ciddi narahatlıq yaratdığını da vurğulayaraq bildirdi ki, bəzi məsuliyyətsiz vətəndaşlar heç bir qaydalara əməl etmir, maska taxmır, məsafə saxlamır, özlərini elə aparırlar ki, sanki virus artıq məhv olub: "Buna qətiyyən yol verməк olmaz. Ona görə bu adamlara qarşı ciddi tədbirlər görüləcək. Hamı bunu bilsin və nəticə çıxarsın. Biz imkan verə bilmərik ki, hansısa məsuliyyətsiz vətəndaşlara görə insanların həyatı risk altına düşsün. Qətiyyən mümkün deyil".

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri birlikdə dua ediblər

Azərbaycandakı dini konfessiyaların rəhbərləri müqəddəs Ramazan ayı ilə əlaqədar birlikdə dua ediblər.



AZƏRTAC xəbər verir ki, əvvəlcə müqəddəs Qurani-Kərimdən ayələr oxunub.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, ölkəmizdəki dini konfessiyaların rəhbərləri həmrəylik nümayiş etdirərək oruc tutublar və bu gün birlikdə iftar açırlar. “İlk dəfədir ki, iftarı belə açırıq. Bu, həm Uca Yaradanımızın istəyi, həm də bütün dünyaya nümunə olan Azərbaycan tolerantlıq modelidir. Mənəvi harmoniya mühitində yaşamağımız dövlətimiz tərəfindən dəstəklənir, dünya bizim bu həyat təcrübəmizi təqdir edir, dəyərli örnək kimi qiymətləndirir. Multikulturalizm, etnik və dini müxtəliflik Azərbaycanın milli sərvətidir. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, dini və məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu, bizim həyat tərzimizdir, təməli Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş, dövlət başçısı İlham Əliyevin uğurla davam etdirdiyi müdrik dövlətçilik siyasətinin, din-dövlət münasibətlərinin bəhrəsidir. Mədəniyyətlərarası, dinlərarası dialoqun, multikultural ənənələrin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna xidmətləri xüsusi qeyd olunmalıdır. Qürurverici haldır ki, Pontifik Şurasının bu il Ramazan ayı ilə əlaqədar dünya müsəlmanlarına müraciətində Papa həzrətlərinin Bakı səfəri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri ilə görüşü xüsusi xatırlanır. Bu, Azərbaycan dövlətinə, onun dini-mənəvi dəyərlərə münasibətinə verilən qiymətdir. Əziz qardaşım Rus Pravoslav Kilsəsinin başçısı Patriarx Kiril ötən il Dünya dini liderlərinin II Sammitindəki çıxışında Azərbaycanın himayədarlığı altında dinlərarası və mədəniyyətlərarası əməkdaşlığa dair Bakıda və dünyanın bir çox ölkələrində keçirilən beynəlxalq tədbirləri, o cümlədən ölkəmizdəki din-dövlət münasibətlərini yüksək dəyərləndirdi”, - deyə Şeyxülislam qeyd edib.

Dünyada yayılan koronavirus pandemiyasından danışan QMİ sədri deyib ki, Prezident İlham Əliyevin vaxtında atdığı addımlar, qəbul etdiyi qərarlar sayəsində insanlarımız bu bəladan qorundu. Xalq-lider birliyi insanlarımızın qorunması baxımından əhəmiyyətli rol oynadı. Bu gün ölkəmiz pandemiyaya yoluxanların və bu səbəbdən həyatını itirənlərin sayı baxımından son yerlərdədir. QMİ sədri əmin olduğunu bildirib ki, Allahın izni və dövlətimizin səyləri sayəsində ölkəmiz bu bəlaya da qalib gələcək.

Şeyxülislam Allahşükür Paşazadə hər il Prezident İlham Əliyevin iştirakı ilə iftar mərasimlərinin təşkil edildiyini xatırladıb. Bildirib ki, bu il karantin qaydalarına uyğun olaraq belə tədbir keçirilmir. QMİ sədri əmin olduğunu bildirib ki, tezliklə bu bəla aradan qalxacaq və növbəti il yenidən ənənəvi iftar mərasimləri təşkil ediləcək.

Çıxışının sonunda Şeyxülislam dövlət başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın timsalında xalqımızın salamatlığı, tezliklə bu bəlanın qurtarması üçün dualar edib.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev və Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi yepiskop Vladimir Fekete bildiriblər ki, dövlət başçısının vaxtında verdiyi qərarlar sayəsində xəstəliyin ölkəmizdə geniş yayılmasının qarşısını almaq üçün önəmli tibbi və sosial tədbirlər görüldü. Azərbaycan Prezidenti insanların sağlamlığını hər şeydən üstün tutaraq vaxtında qabaqlayıcı addımlar atdı. Nəticədə isə insanların sağlamlığı maksimum dərəcədə qorunub saxlanıldı. Bu isə Azərbaycanın sosialyönümlü dövlət olmasına daha bir bariz nümunədir. Bu, o deməkdir ki, dövlət başçısının siyasətinin mərkəzində vətəndaş amili dayanır.

Sonda dini konfessiya rəhbərləri pandemiyanın geniş yayılmasının qarşısının alınması, eyni zamanda fəsadlarının aradan qaldırılması üçün vaxtında atılan düşünülmüş addımlara görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkürlərini ifadə ediblər.

# Ölkəmizdə koronavirusa daha 101 yoluxma faktı qeydə alınıb, 53 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 101 yoluxma faktı qeydə alınıb, 53 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, xronik böyrək çatışmazlığı, xronik pielonefrit və arterial hipertoniya xəstəliyi olan 1977-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 2980 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1886 nəfər müalicə olunaraq sağalıb, 36 nəfər vəfat edib, 1058 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 37 nəfərin vəziyyəti ağır, 47 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 220.363 test aparılıb.

# Bakı Ali Neft Məktəbində onlayn final imtahanları davam edir

**Bakı Ali Neft Məktəbinin mətbuat xidmətindən verilən məlumata görə, Bakı Ali Neft Məktəbi (BANM) təhsilin nəticələrinin qiymətləndirilməsi üçün onlayn final imtahanlarını davam etdirir. Ölkədə ilk dəfə olaraq BANM-də təşkil olunan onlayn imtahanlar may ayının 18-də yekunlaşacaq.**

Onlayn imtahanların obyektivliyi və plagiatlığın qarşısının alınması beynəlxalq təcrübəyə uyğun olaraq ali məktəb tərəfindən hazırlanmış Şərəf Kodeksi əsasında təmin edilir. İmtahanlar LMS (Learning Management System - Öyrənmənin idarəolunması sistemi) üzərindən reallaşdırılır.

Qeyd edək ki, bu sistem yerli mütəxəssislər tərəfindən ilk dəfə olaraq Bakı Ali Neft Məktəbi üçün hazırlanıb.

Bundan əlavə, Bakı Ali Neft Məktəbinin tələbələri ABŞ-ın Stanford Universitetinin lisenziyalı “Coursera for Campus” qlobal distant tədris proqramının təklif etdiyi kurslarda uğurla iştirak edərək sertifikatlar əldə ediblər.

Ümumilikdə proqram çərçivəsində kurslarda ali məktəbin 411 tələbə və müəllimi iştirak edib. Bura “Proseslərin avtomatlaşdırılması mühəndisliyi”, “İnformasiya təhlükəsizliyi” ixtisaslarının II, III, IV və V kurs tələbələri (həm bakalavriat, həm də magistratura), Hazırlıq (“Foundation”) kursunun 195 tələbəsi, MBA proqramının bütün tələbələri daxildir. Dərslər nüfuzlu Amerika, Avropa və Asiya universitetlərinin professor-müəllim heyəti tərəfindən distant formada aparılıb.

Kurslardan sertifikat əldə etmiş tələbələrə müvafiq fənlər üzrə final imtahanlarından azad olmaq imkanı yaradılıb.

Qeyd edək ki, BANM-də təhsil Böyük Britaniyanın Heriot Vatt Universitetinin tədris proqramlarına əsasən həyata keçirilir, buna görə də semestr dərsləri də digər ali təhsil müəssisələrinə nəzərən daha öncə başlayır və yekunlaşır.

# Multikulturalizm Mərkəzinin yaranmasından 6 il ötür

Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Bu siyasətin əsasında ölkənin etnik, dini, dil və mədəni müxtəlifliklərinin qorunması dayanır. Multikulturalizm siyasəti dövlətin inteqrasiya siyasətini də möhkəmləndirir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu siyasətin həyata keçirilməsində əhəmiyyətli yerə malikdir.




AZƏRTAC xəbər verir ki, bu fikirlər mərkəzin yaranmasının 6 ili ilə bağlı BBMM-in Mətbuat xidmətinin yaydığı məlumatda yer alıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 15 may tarixli fərmanı ilə yaradılan Multikulturalizm Mərkəzi artıq 6 ildir ki, uğurla fəaliyyət göstərir. Mərkəzin yaradılmasında əsas məqsəd Azərbaycanın tarixən sahib olduğu multikultural dəyərlərin, mədəniyyətlərarası və xalqlararası dostluğun bu gün də təbliğ edilməsidir. Müasir dövrdə Multikulturalizm Mərkəzi Azərbaycanın ictimai-siyasi, mədəni həyatında və multikulturalizm siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Dövlət başçısının həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan həqiqətlərinin dünyaya yayılması, eləcə də ölkəmizin imicinin daha da yaxşılaşdırılması baxımından BBMM önəmli bazaya çevrilib. Bu istiqamətdə mərkəz bir sıra uğurlu layihələr həyata keçirir. Bu layihələr içərisində “Azərbaycan multikulturalizmi” və “Multikulturalizmə giriş” fənlərinin yerli və xarici universitetlərdə tədrisi, yay və qış beynəlxalq multikulturalizm məktəbləri, “Terror multikulturalizmə qarşı”, “Qafqaz Albaniyası” və digərlərini xüsusi qeyd etmək olar. Bu gün 9 xarici ölkədə BBMM-in filialı fəaliyyət göstərir. Respublikamızın bütün universitetlərində, eləcə də dünyanın 22 nüfuzlu ali məktəbində (Almaniya, Rusiya, İndoneziya, Türkiyə, Yaponiya, İtaliya, Braziliya, Portuqaliya, Hindistan, Gürcüstan, Ukrayna və s.) Azərbaycan multikulturalizm modeli tədris edilir. Beynəlxalq yay və qış multikulturalizm məktəbi iştirakçılarının yaratdığı “Azərbaycanın gənc dostları” klubu xarici ölkələrdə Azərbaycanın maraqlarını müdafiə edir. Hər il onlarla uğurlu elmi nəşr təqdim edən Multikulturalizm Mərkəzi həm də yerli və xarici tədqiqatçılar üçün araşdırma mərkəzi rolunu oynayır. BBMM-in nəşrləri sırasında “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında” (Azərbaycan, rus, ingilis, fransız, ispan, italyan dillərində), “Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları” (Azərbaycan, rus, ingilis dillərində) kitabları, eləcə də “Azərbaycan multikulturalizmi” (Azərbaycan, ingilis dillərində) və “Multikulturalizmə giriş” dərslikləri xüsusilə diqqətə layiqdir. Onu da əlavə edək ki, BBMM-in ildə 4 dəfə nəşr olunan “Multikulturalizm” jurnalı və ayda 2 dəfə “Mədəniyyət” telekanalı ilə birgə təqdim etdiyi “Multikulturalizm” adlı verilişi də fəaliyyət göstərir. Bu yaxınlarda isə mərkəzin “International Journal of Multiculturalism” (Beynəlxalq Multikulturalizm Jurnalı) adlı yeni beynəlxalq elmi jurnalı ingilis dilində nəşrə başlayıb.

Prezident İlham Əliyevin də dediyi kimi, bu gün Azərbaycan dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınır. Bu, Azərbaycan dövlətinin əsas istiqamətlərindən biri və dövlət başçısının həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi də bu siyasətə öz töhfəsini verir. Mərkəz artıq dünya ictimaiyyəti tərəfindən təqdir edilən, multikulturalizmin bu funksiyasını daşıyan, aparıcı bir qurum statusunu qazana bilib.

# Könüllülər koronavirusla mübarizədə dövlətin yanındadırlar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına cavab olaraq, Azərbaycanda fəaliyyət göstərən könüllülər təşkilatları və hərəkatları tərəfindən yaradılmış Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM) “Birbirimizi qoruyaq” adlı yeni kampaniyaya start verib.



AZƏRTAC xəbər verir ki, dünyada sürətlə yayılan yeni koronavirus epidemiyasının ölkə əhalisinin sağlamlığı üçün yarada biləcəyi təhlükələrin qarşısının alınması istiqamətində dövlət başçısının göstərişi ilə həyata keçirilən səmərəli tədbirlər respublika ərazisində tətbiq edilən karantin rejiminin mərhələli şəkildə yumşaldılmasına imkan yaradıb. Lakin təhlükə hələ də tam sovuşmayıb. Təəssüf ki, heç də bütün vətəndaşlar tərəfindən bu təhlükənin dərindən dərk edildiyini, onun dəf edilməsinin, ilk növbədə, məsuliyyətli davranışdan, verilən tövsiyə və təlimatlara düzgün əməl edilməsindən asılı olduğunun başa düşüldüyünü söyləmək mümkün deyil. AKƏM-in yeni kampaniyası dövlət tərəfindən məhz bu istiqamətdə həyata keçirilən fəaliyyətə töhfə verəcək.

Mərkəzin işində iştirak edən 18 könüllülər hərəkatının birgə qərarı ilə ölkəmizdə karantin rejiminin ardıcıl şəkildə yumşaldılması ilə əlaqədar yaranan yeni şəraitdə əhalinin sağlamlığının qorunması istiqamətində müxtəlif maarifləndirmə və təbliğat tədbirləri həyata keçiriləcək. Kampaniya çərçivəsində vətəndaşların Nazirlər Kabineti yanında Operativ Qərargahın və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi qaydalara uyğun hərəkət etmələri, o cümlədən insanların çox toplaşdığı məkanlarda sosial məsafənin saxlanılması, növbə mədəniyyətinin yüksəldilməsi, dezinfeksiya tədbirlərinin mütəmadi şəkildə aparılması, şəxsi qoruyucu vasitələrdən istifadənin təşviq edilməsi kimi məsələlər diqqət mərkəzində olacaq.

Qeyd edilməlidir ki, yeni növ koronavirus infeksiyasının yarada biləcəyi təhlükə ilə mübarizədə dövlət tərəfindən həyata keçirilən tədbirlərin dəstəklənməsi məqsədilə 27 mart 2020-ci il tarixində formalaşan və fəaliyyətində “ASAN Könüllüləri” Gənclər Təşkilatı, “Regional İnkişaf” İctimai Birliyi, “BİR Tələbə-Könüllü” Proqramı, “Könüllü DOST” Proqramı, “Aqrar İnkişaf Könüllüləri” İctimai Birliyi, “Nəqliyyat Könüllüləri” Proqramı, Bakı Şəhər Halqası Könüllüləri, “Miqrasiya Könüllüsü” İctimai Birliyi, “Könüllü gömrükçü” Dəstəsi, “Turizm Könüllüləri” İctimai Birliyi, “Diplomatiya Könüllüləri” Qrupu, “Ekokönüllüləri” Qrupu, “Azərbaycan Diaspor Könüllüləri” Proqramı, “SƏLİS Könüllüləri” İctimai Birliyi, “Azərbaycan İdman Könüllüləri” İctimai Birliyi, “AFFA və Avro-2020” Könüllülər Proqramı və “Gənc Könüllülər” Hərəkatı və digər təşkilat və hərəkatların iştirak etdiyi mərkəzin işinin əlaqələndirilməsi Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən həyata keçirilir.

Öz fəaliyyətində Azərbaycan Prezidentinin “Biz birlikdə güclüyük!” şüarını rəhbər tutan AKƏM tərəfindən respublikanın, demək olar ki, bütün şəhər və rayonlarında könüllülər səfərbər olunub, onların əlaqələndirilməsi və lazımi fəaliyyətlərə yönləndirilməsi həyata keçirilib. AKƏM-in təşkilatçılığı ilə keçirilən “Böyüklərimizi qoruyaq!”, “Könüllü qonşu”, “Könüllü donor” aksiyalarında minlərlə könüllü iştirak edib.

# Koronavirus Paşinyanı çıxılmaz vəziyyətə salıb

## Ermənistanda sosial-iqtisadi xaos daha da dərinləşir

*Əvvəli 1-ci səh.*

Məsələ burasındadır ki, bəhs etdiyimiz kapital çoxdan aysberqin yalnız kiçik bir hissəsi olaraq Ermənistanda qalıb. Hazırda müsadirə etmək, götürmək, ələ keçirmək, yenidən bölüşdürmək və məsələnin həll edilmiş hesab edilməsinin mümkün olduğunu düşünmək qeyri-real və qeyri-kafi görünür”.

Ermənistanın “Alternativ” ictimai təşkilatının sədri Narek Mantaşyan da bildirib ki, vəziyyət olduqca ağırdır və Paşinyanın çıxış yolları dalana dirənib. Vurğulayıb ki, elə bu səbəbdən Ermənistan baş naziri və komendant ofisinə çağırış edirəm ki, koronavirusu iqtisadi uğursuzluqların günahkarı hesab etməsinlər. Bütün bunların yeganə günahkarı koronavirusa qarşı öz qeyri-ciddi münasibəti ilə bugünkü hakimiyyətdir.

Mantaşyan qeyd edib ki, Nikol Paşinyan nəyin bahasına olursa-olsun ölkəni ötən əsrin 90-cı illərinin əvvəlinə gətirməyə çalışır: “Nikol Paşinyan zehni qabiliyyətləri, xarizması ilə Levon Ter-Petrosyandan kifayət qədər geri qalaraq hakimiyyətdə o qədər də uzun sürə bilməyəcək və çox tez istefa verəcək”.

Elə erməni politoloq Andranik Tevanyan da məsələyə eyni prizmadan yanaşır. O, Ermənistan qarşısında əsas çağırışların Qarabağ məsələsi, koronavirus, sosial-iqtisadi və xarici siyasət, məhkəmə böhranları və aşağı səviyyəli idarəetmə olduğunu bildirib: “Baş nazir fövqəladə vəziyyətdə idarəetmə şəraitinin formasını dəyişməklə bağlı son şansından məhrum olub. O, özü ciddi böhran mənbəyinə çevrilib. Bu, Ermənistana və Qarabağa çox baha başa gəlir. 2022-ci ilə qədər böhran vəziyyətində olacağıq. Bu, yekunda təhlükəsizliklə bağlı ağır nəticələrə gətirib çıxaracaq”.

Maraqlıdır ki, məhz bu durumda Paşinyanla ciddi qarşıdurma yaşayan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) keçmiş direktoru Artur Vanetsyan ölkədə hakimiyyət dəyişikliyinin anonsunu verib. “Rodina” İnkişaf Fondunun rəsmi “Facebook” səhifəsində yerləşdirilən bəyanatda deyilir: “Bu yaxınlarda baş verən daxili siyasi hadisələri nəzərə alaraq əminliklə deyə bilərəm ki, yaxın gələcəkdə bizi böyük siyasi hadisələr gözləyir. Sizin fəaliyyətinizə daha çox tələb olacaq və əməyiniz qiymətləndiriləcək”.

Qeyd edək ki, Vanetsyan bu fondun Qəyyumlar Şurasının sədridir. Bundan başqa, məlum olub ki, Vanetsyan Nikol Paşinyanı məhkəməyə verməyə də hazırlaşır. Onun vəkilləri olan Lusina Saayan və Aramazd Kiviryan məlumatı təsdiq ediblər. Vəkillər Ermənistan baş nazirinin mətbuat katibi Mane Gevorqyanın böhtan xarakterli ifadələrinə görə mülki iddia ərizəsinin hazırlanıb məhkəməyə təqdim olunacağını bildiriblər: “Hökumət başçısının öz sözçüsünün vasitəsilə qəsdən yalan məlumat yaymağını yolverilməz və çirkin hesab edirik. Bu, özündə birbaşa siyasi təzyiq elementlərini cəmləşdirir. Məhkəməyə müvafiq mülki iddianı təqdim edəcəyik. Qanuna görə böhtan atan hər kəs bunun üçün cavab verməlidir və Ermənistanda böhtan xarakterli mübarizə üsulu, nəhayət, rədd edilməlidir”.

Xatırladaq ki, Paşinyanın mətbuat katibi Mane Gevorqyan sabiq prezident Serj Sarkisyanın kürəkəni Mikael Minasyan və Artur Vanetsyanı bir sıra şirkətlərin rəhbərləri vasitəsilə qanunsuz olaraq səhm almaqda ittiham edib. Gevorqyan bu barədə məlumat əldə etdiyini bildirib. Vanetsyan isə bu ittihamları absurd sayır. Bundan başqa, qeyd edir ki, Nikol Paşinyan hüquq mühafizə orqanlarından ona qarşı cinayət işi açmağı tələb edib.

Hesab edilir ki, yaranmış vəziyyətdə məhz siyasi qüvvələr Vanetsyanın rəhbərliyi altında Paşinyana qarşı təşkilatlanacaq. Ölkədə yaranan sosial-iqtisadi xaos isə bu qüvvələrin istəklərini daha tez reallaşdırmağa şərait yaradır.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa edilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nəzdində H.Sarabski adına 7 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Mehriban Rüstəmovanın məktəbdə işləyən müəllimlərin əməkhaqlarını mənimsəməsi barədə daxil olmuş məlumat Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Mehriban Rüstəmovanın vəzifə səlahiyyətlərindən sui-istifadə edərək məktəbdə çalışan ayrı-ayrı müəllimlərə məxsus əməkhaqqı kartlarını qanunsuz ələ keçirib, həmin kartlara köçürülmüş pul vəsaitlərini bankomatdan şəxsən çıxarmaqla, habelə müəllimlərin əməkhaqqı kartlarına köçürülmüş aylıq əməkhaqqının əhəmiyyətli hissəsini tələb edərək külli miqdarda pul vəsaitini mənimsəməsinə əsaslı şübhələr müəyyən olunduğundan fakt üzrə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Məhkəmə qərarına əsasən M.Rüstəmovanın xidməti otağında, onun Nəsimi rayonunda yerləşən evində və avtomobilində keçirilmiş axtarış nəticəsində rəhbərlik etdiyi musiqi məktəbinin müəllimlərinin adlarına olan 40 ədəd plastik kart, müxtəlif ölkələrin valyutalarında saxlanılan 40 min manata yaxın pul vəsaiti, musiqi məktəbinin şagirdlərinin adına olan 36 şəhadətnamə, məktəbin tarifləşmə və tabel cədvəlləri, əmr kitabı, bir “notebook” və iş üçün əhəmiyyət kəsb edən digər sənəd və əşyalar aşkarlanaraq götürülüb.

İstintaq zamanı M.Rüstəmovanın müəllimlərin adına olan 40 ədəd əməkhaqqına dair plastik kartları özündə saxlayaraq həmin kartlara köçürülmüş pul vəsaitlərini bankomat vasitəsilə ələ keçirərək mənimsəməsi özünün etirafı, eləcə də iş üzrə toplanmış digər sübutlarla təsdiqini tapıb.

İlkin sübutlara, həmçinin M.Rüstəmovanın məktəbin müəllimlərindən qanunsuz yollarla topladığı pul vəsaitinin bir qisminin qabaqcadan əldə edilmiş razılaşmaya uyğun olaraq Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşına verilməsi, digər qisminin isə özü tərəfindən mənimsənilməsinə əsaslı şübhələr müəyyən olunub.

Hazırda iş üzrə bütün qanunazidd halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Atəşkəs rejimi 26 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Əsrik Cırdaxan kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin təmizlik malları ilə təmin edilməsi üzrə

### *tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

| | |
|---|---|
| LOT 1 | ATM-lərə təmir və proqram təminatı xidməti |

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:**

**LOT 1 300 manat**

**məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:**

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir);*
- *yeni meyar Millikart tərəfindən ATM proqram təminatının MasterCard və VİSA beynəlxalq ödəniş sistemlərinə windows 7 əməliyyat sistemi üzrə sertifikasiya keçilməsi barədə təsdiq sənədi.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **09 iyun 2020-ci il saat 16:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **18 iyun 2020-ci il saat 12:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **19 iyun 2020-ci il saat 12:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü, tel: +99412-493-56-00, faks: +99412-493-00-37.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

### Gəncə şəhərində Kiçik və Orta Biznesin İnkişafı Mərkəzinin fəaliyyətə başlaması üçün təşkilati işlərin həyata keçirilməsi, mərkəzdə KOB-lara təlim və seminarların keçirilməsi, məsləhət və dəstək xidmətlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tenderiştirakçıları www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatəldə edə bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500 AZN**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:**

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri: "Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T. AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilindətərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 11.06.2020-ci il saat 18:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 22.06.2020-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 23.06.2020-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır. İddiaçılar E-şərtlər toplusunu 18.05.2020-ci il saat 16:00-dan (elan tarixi günü) sonra əldə edə bilərlər.

*Tender komissiyası*

## "NBCBank" Açıq Səhmdar Cəmiyyətinin və "AGBank" Açıq Səhmdar Cəmiyyətinin bank lisenziyalarının ləğv edilməsi barədə rəsmi məlumat

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 12.05.2020-ci il tarixli qərarları ilə "NBCBank" Açıq Səhmdar Cəmiyyətinin və "AGBank" Açıq Səhmdar Cəmiyyətinin bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaları ləğv edilmişdir.

Həmin banklar barəsində iflas prosedurunun başlanması ilə əlaqədar Mərkəzi Bank tərəfindən məhkəməyə müraciət edilmiş, məhkəmənin 14.05.2020-ci il tarixli qərarlarına əsasən bu banklar müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu ləğvedici təyin edilmişdir.

Əhalinin bu banklarda qorunan əmanətlərinin ödənilməsi vaxtı və yeri barədə Əmanətlərin Sığortalanması Fondu tərəfindən məlumat veriləcəkdir.

*Mərkəzi Bankın İdarə Heyəti*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" tərəfindən 08 aprel 2020-ci il tarixdə elan edilmiş beynəlxalq və ölkə səviyyəli tədbirlərdə, bayramlarda mükafatlandırma, eləcə də yubiley mərasimlərində təbrik və xatirə məqsədilə verilməsi nəzərdə tutulan hədiyyələrin satın alınması ilə bağlı müsabiqənin nəticəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 9.5-ci maddəsinin tələblərinə uyğun gəlmədiyi səbəbindən ləğv edilmişdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 18.03.2020-ci il tarixli sayında dərc edilmiş Nəqliyyat vasitələri üçün avtoşinlərin satın alınması prosedurunun qalibi "TS MOTORS" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "TS MOTORS" MMC arasında 35 936,90 (otuz beş min doqquz yüz otuz altı manat 90 qəpik) manat məbləğində 14.05.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 18.03.2020-ci il tarixli sayında dərc edilmiş Dəftərxana ləvazimatlarının satın alınması prosedurunun qalibi "İNCİ GROUP OF COMPANİES" QSC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "İNCİ GROUP OF COMPANİES" QSC arasında 44 956.61 (qırx dörd min doqquz yüz əlli altı manat 61 qəpik) manat məbləğində 14.05.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 10 aprel 2020-ci il tarixli sayında dərc edilmiş kotirovka sorğusu metodu ilə keçirilən əmək kitabçalarının mətbəə üsulu ilə hazırlanmasının satın alınmasına dair müsabiqənin qalibi Tender komissiyasının qərarı ilə "De Tal" MMC elan olunmuşdur.

Qalib təşkilatla 12 may 2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# Beynəlxalq aləm

## PKK-nın xüsusilə təhlükəli terrorçusu zərərsizləşdirildi



Türkiyə Milli İstihbarat Təşkilatı İraqın şimalında PKK/KCK terrorçu təşkilatının liderlərindən biri Qalya Bəkiri məhv etmək üçün uğurlu əməliyyat keçirmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Zərərsizləşdirilmiş terrorçu qruplaşmanın İraqın şimalında yerləşən Mahmur şəhəri üzrə lideri hesab edildi. O, "Berivan Sarya" kod adı ilə tanınırdı. Bəkir PKK-ya 2002-ci ildə Suriyada qatılmışdı. O, Suriya və İraq ərazisində terrorçuların fəaliyyətini əlaqələndirirdi.

Gözlənildiyinə görə, "Berivan Sarya"nın zərərsizləşdirilməsi regionda PKK-nın "qadın qanadı"nın idarəetmə zəncirini zəiflədəcək, həmçinin qruplaşmaya "təcrübəli kadrlar"ın cəlb olunmasını çətinləşdirəcək.

## ÜST Avropanı pandemiyanın ikinci dalğasına hazırlaşmağa çağırır



Avropa ölkələri koronavirus pandemiyasının ikinci dalğasına hazırlaşmalıdır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional ofisinin direktoru Hans Klüge bildirmişdir ki, infeksiya üzərində qələbəni qeyd etməyin hələ vaxtı deyil.

Klügenin dediyinə görə, Avropa payızda koronavirusun ikinci dalğası ilə qarşılaşa bilər, özü də o, qrip və qızılca xəstəliyinə mövsümi yoluxma hallarının artması ilə müşayiət ediləcək. ÜST-ün nümayəndəsi əlavə etmişdir ki, indi səhiyyə sistemlərini gücləndirməyə, tibbi müəssisələrin, ilkin tibbi-sanitar yardım və reanimasiya şöbələrinin imkanlarını genişləndirməyə diqqət yetirmək lazımdır. O, həmçinin məhdudlaşdırıcı tədbirləri yumşaltmağa başlayan ölkələri tələsik addım atmaqdan çəkinməyə çağırmışdır.

Bundan əvvəl çinli ekspertlər pandemiyanın ikinci dalğasının cari ilin noyabrında başlayacağını proqnozlaşdırmışdılar.

## Tramp Çini münasibətləri tamamilə kəsməklə hədələdi

ABŞ koronavirusla əlaqədar Çinlə münasibətləri tamamilə kəsə bilər. Bu xəbərdarlıqla ABŞ lideri Donald Tramp çıxış etmişdir. KİV yazır ki, hazırda Tramp administrasiyası COVID-19 ilə bağlı vəziyyətə görə Çini cəzalandırmaq və ya kompensasiya almaq yollarını nəzərdən keçirir.

Bundan əvvəl Çin bəyan etmişdi ki, Vaşinqton Pekinə qarşı sanksiyalar tətbiq etsə, cavab tədbirləri görəcək. "The Global Times" qəzetinin xəbərinə görə, Çin ABŞ-ın dörd rəsmisinə və iki hüquqi şəxsə qarşı sanksiyalar tətbiq edə bilər. "Qara siyahı"ya Çin hökumətinə qarşı məhkəmədə "koronavirus" iddiası qaldırmış Missuri ştatının baş prokuroru Erik Şmittin düşməsi gözlənilir.

Öz növbəsində ABŞ Prezidenti Donald Tramp bildirmişdi ki, Çinə qarşı sanksiyalar haqqında qanun layihəsi ilə tanış olmağa hazırdır. "COVID-19-a görə məsuliyyət haqqında" sənədi respublikaçı senator Lindsi Qrem hazırlamışdır. Çin koronavirusun mənşəyinin araşdırılmasında ABŞ ilə əməkdaşlıqdan imtina edərsə, sanksiyalar tətbiq oluna bilər.

## Koronavirus geri çəkiləndən sonra Milanı su basdı

İtaliyanın Lombardiya vilayətində leysan yağışları çayların daşmasına, Milan şəhərinin və ətrafının su altında qalmasına gətirib çıxarmışdır. Bu barədə yerli KİV xəbər verir.

Sevezo çayı məcrasından çıxmış, Lambro çayında suyun səviyyəsi maksimum həddə çatmışdır. Daşqın qatar, tramvay və avtobusların hərəkətini pozmuş, bəzi rayonlarda elektrik kəsintisi müşahidə olunur. Niquarda məhəlləsində bir neçə küçə bağlanmışdır, yolları yıxılmış ağaclardan təmizləmək lazım gəlir.

## Sloveniya koronavirusa qalib gəldi



Sloveniya koronavirus epidemiyası üzərində qələbə çaldığını elan etmişdir. Bu barədə ölkənin Baş Naziri Yanez Yanşa istinadən "Röyter" agentliyi xəbər verir.

"Sloveniya son iki ayda epidemiyanı aradan qaldırmışdır... Bu gün bütün Avropada ən yaxşı epidemioloji mənzərəyə malikik", - deyə Baş Nazir bəyan etmişdir.

Hökumət bəzi ehtiyat tədbirlərini ləğv edəcək: məsələn, cari ay qurtaran kimi vətəndaşlara və müəssisələrə maddi yardım göstərməyi dayandıracaq. Sloveniyaya gələn digər Avropa İttifaqı ölkələrinin sakinləri artıq karantinə əməl etməli olmayacaqlar. Ancaq bu tələb digər ölkələrin vətəndaşlarına şamil ediləcək.

Bununla belə, hökumət sosial məsafə saxlamaqda və ictimai yerlərdə maska taxmaqda israr edir. Kütləvi tədbirlər də qadağandır. Hökumət qeyd edir ki, karantin tədbirləri azı 14 gün qüvvədə qalacaq.

Sloveniyada epidemiya başlayandan bəri 1465 yoluxma faktı qeydə alınmış, 103 nəfər vəfat etmişdir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğluna qardaşı

**ÇİNGİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və İcraiyyə Komitəsi AHİK sədrinin birinci müavini İlyas Əliyevə qardaşı

**VAQİF ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini İlyas Əliyevə qardaşı

**VAQİF ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7520
Sifariş 1236
Qiyməti 40 qəpik